## Xankəndi-Laçın yolunda sülhməramlıların 31 avtomobili maneəsiz keçib



**Şuşadan keçən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına məxsus daha 1 avtomobilin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb.**

Toplanış yerində nəqliyyat vasitəsi maneəsiz şəkildə hərəkət etməsi təmin olunub. Belə ki, minik maşını Laçından Xankəndi istiqamətinə keçid edib. Bu, bir daha onu sübut edir ki, yol aksiyanın keçirilməsinə baxmayaraq, humanitar məqsədlər üçün açıqdır. Bununla da gün ərzində Xankəndi-Laçın yolunda hər iki istiqamətə Rusiya sülhməramlılarına məxsus ümumilikdə 31 avtomobil maneəsiz hərəkət edib.

## Azərbaycanda zəlzələ olub



**Qobustanda zəlzələ baş verib.**

**Bu barədə Respublika Seysmoloji Xidmət Mərkəzindən xəbər verilib.**

Qeyd edilib ki, Zəlzələlərin Tədqiqatı Bürosunun məlumatına əsasən, yerli vaxtla saat 16:09-da Qobustan stansiyasından 13 km şimal-qərbdə Qobustan rayonunda zəlzələ qeydə alınıb. Zəlzələ hiss olunmayıb.

*Zəlzələnin maqnitudası 3.1, dərinliyi 7 km olub.*



## Türkiyədən Azərbaycana komissiyasız pul köçürmək mümkün oldu

**Hazırda Türkiyədən Azərbaycana komissiyasız pul köçürmələrini təşkil edə bilirik.**

Bu barədə bazar ertəsi Trend-ə "Turan Teknoloji Anonim Şirketi" (Turan) təsisçisi və baş direktoru Özgür Bayraktar məlumat verib.

Onun sözlərinə görə, yaxın zamanlarda Azərbaycandan da Türkiyəyə komissiyasız pul köçürmələrinin təşkili planlaşdırılır.

"Həm Azərbaycandan Türkiyəyə, həm də əksinə pul köçürmələri üzrə limitlər bu və ya digər kartı emissiya edən bank tərəfindən tənzimlənir. Hazırda köçürmələri komissiyasız həyata keçiririk və önümüzdəki 90 gün ərzində Türkiyədən Azərbaycana pul kçürmələrini komissiyasız həyata keçirməyi plaşlaşdırırıq", - o deyib.

Bayraktar xatırladıb ki, "Turan" artıq Türkiyədən Azərbaycana komissiyasız pul köçürmələri (kartdan karta) imkanını işə salıb", - deyə o qeyd edib.


❒ № 8 (5769), 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 17 yanvar 2023-cü il (çərşənbə axşamı)




## Ərəb dünyası üçün Azərbaycan vacib ölkədir

### Bu səfər həm də ərəb ölkələri ilə əlaqələr qurmağa çalışan Ermənistana yerinin göstərilməsidir

**Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin rəhbəri Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə yanvarın 15-də Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfər edib. Dövlət başçısı İlham Əliyev ilk növbədə Birləşmiş Ərəb Əmirliklərinin prezidenti ilə görüşüb. Prezident səfərə dəvətə görə minnətdarlığını bildirib.**

Həmçinin BMT Təhlükəsizlik Şurasında Cənubi Qafqaz regionuna aid müzakirələrdə Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycana göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini, bunun dostluğun və qardaşlığın nümunəsi olduğunu bildirib.

(səh.3)

# Son döyüş başladı

### Vardanyan-Arutyunyan-Paşinyan arasında münaqişənin açıq fazaya keçməməsi mövcud reallığı dəyişmir



**Qarabağda separatçı rejimin "rəhbərliyi" - Araik Arutyunyan və Ruben Vardanyan istefaya gedir. Eyni zamanda qondarma "milli təhlükəsizlik xidmətinin direktoru" Armen Akopcanyan da "vəzifə"dən" uzaqlaşdırılır.**

Bu barədə "Hraparak" nəşri yazıb. Məlumata görə, Arutyunyan qondarma rejimin keçmiş "rəhbəri" Bako Saakyanla "dövlət naziri"nin dəyişdirilməsi məsələsini müzakirə edib.

Vardanyanın getməsindən sonra Bakının təzyiqinin azalacağı düşüncəsi var. Nəşr yazıb ki, Vardanyan Araik Arutyunyanın xahişi ilə gedir: "Daha doğrusu, Nikol Paşinyan belə bir tələbin Azərbaycan rəhbərliyi tərəfindən irəli sürüldüyünü separatçılara deyib. Bakı açıq şəkildə bildirib ki, Vardanyan arzuolunmaz şəxsdir və Qarabağı tərk etməlidir. Qarabağda "siyasi qüvvələr" buna qarşı çıxır, onlar hesab edirlər ki, Bakının hansısa tələbi icra olunarsa, daha heç nə edə bilməyəcəklər. Lakin Vardanyandan sonra Araik Arutyunyanın özü də istefaya gedəcək, məqsəd gərginliyin azalması, Bakının istəklərinin yerinə yetirilməsidir. Eyni zamanda "milli təhlükəsizlik xidmətinin direktoru" da "postun"dan göndərilir".

(səh.2)

## Polşa Baş naziri narahatdır

### "Ukraynanın məğlubiyyəti üçüncü dünya müharibəsinin başlanğıcı ola bilər"



**"Rusiya ilə müharibədə Ukraynanın məğlub olması üçüncü dünya müharibəsinin başlanğıcı ola bilər".**

"Report" "RBK Ukraina"ya istinadən xəbər verir ki, bunu Polşanın Baş naziri Mateuş Moravetski deyib.

O bildirib ki, bunun qarşısını almaq üçün Kiyevə bütün lazımi dəstək göstərilməlidir.

Hökumət başçısının sözlərinə görə, Polşa, Almaniya və bütövlükdə Avropa indi tarixin unikal nöqtəsindədir.

*Qeyd edək ki, Rusiya-Ukrayna savaşı ötən il fevralın 24-də başlayıb. Ukrayna Baş Qərargahının məlumatına görə, Rusiya döyüşlərdə 117 minə yaxın şəxsi heyət itirib.*

## Dəmir yolu nəqliyyatına maraq da artıb, tələbat da

### Tıxaclardan bezənlərin bu nəqliyyata üstünlük verməsi tamamilə normaldır





**2022-ci ildə "Azərbaycan Dəmir Yolları" QSC (AYD) 5 milyon 136 min sərnişin daşıyıb.**

Bu, 2021-ci illə müqayisədə 84 faiz çoxdur. Ötən il daşınmış sərnişinlərin 5 milyon 8 mini Abşeron dairəvi dəmir yolu xətti üzrə daşımalara aiddir.

"İl ərzində Bakı-Gəncə-Bakı istiqamətində hərəkətin bərpası təmin edilib, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə əlavə qatarlar xəttə buraxılıb.

(səh.4)



## İranda 1000-ə yaxın qadın məhbus azadlığa buraxılıb

**İranda 975 qadın məhbus azadlığa buraxılıb və ya digər qanuni güzəştlərdən bəhrələnib.**

APA-nın Tehran bürosu xəbər verir ki, bunu İranın Məhkəmə Hakimiyyətinin rəhbəri Qulamhüseyn Möhsini Ejeyi deyib.

Onun sözlərinə görə, Məhəmməd peyğəmbərin qızı həzrət Fatimənin mövludu münasibətilə həbsdə olan 6 min qadına da məzuniyyət verilib.

O həmçinin qeyd edib ki, ölkənin 15 əyalətində 502 məhbus azadlığa buraxılıb. 4 mindən çox məhbusun işində isə müxtəlif güzəştlər tətbiq olunub.

İranın Məhkəmə Hakimiyyətinin rəhbəri onu da vurğulayıb ki, son 1 ayda 4 mindən çox məhbus azadlığa buraxılıb.

## 1 nəfər vəfat edib

### 2 yeni yoluxma faktı qeydə alınıb





**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2 yeni yoluxma faktı qeydə alınıb, 11 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 827 379 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 816 872 nəfər müalicə olunaraq sağalıb, 10 050 nəfər vəfat edib, aktiv xəstə sayı 457 nəfərdir.

*Ölkədə son sutka ərzində 676, hazırkı dövrədək isə 7 458 556 test aparılıb.*

## Bakıda nişanlı qız eyvandan özünü atdı



**Qaradağ rayonu, Lökbatan qəsəbəsi "Qobu Park-1" yaşayış massivində intihar hadisəsi qeydə alınıb.**

Oxu.az xəbər verir ki, Cəbrayıl rayon sakini olan Qabilli Samidə Habil qızı yaşadığı mənzilin eyvanından özünü ataraq intihar edib.

Əldə edilən məlumata görə, Samidə Qabillinin meyitinə baxış keçirilərkən üzərindən məktub aşkarlanıb.

Məktubda isə ölümündə heç kimin günahının olmadığı, atasının itkisinə dözməyərək intihar etdiyi öz əksini tapıb.

Həmçinin intihar edən şəxsin nişanlı olduğu, yaxın günlərdə toyu olacağı da bildirilir.

Hadisə ilə bağlı araşdırma aparılır.



## "Demişdim ki, qarşıda bizi böyük bir müharibə gözləyir"

Qulu Ağsəs: "Nəzərdə tutduğum böyük müharibə bu gün Xankəndi-Laçın yolundakı aksiyalardır"

(səh.4)



## Vasif Talıbovun "şərkləri" imkan verməyib

"Naxçıvanda rabitə və internet xidmətləri Mozambikdən də aşağı səviyyədə olub"

(səh.4)







# "Təbii qaz ixracımız artmaqda davam edəcək"

## Prezident İlham Əliyev: "Hədəflərimiz böyükdür və əminəm ki, işlərin öhdəsindən gələcəyik"

**"Azərbaycanda investisiya mühiti çox müsbətdir". Bu sözləri Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında keçirilən Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışında çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyev deyib. Dövlət başçısı bildirib ki, ötən ay - dekabrın 17-də Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya Gürcüstanın Qara dəniz sahilindən Rumıniyanın Qara dəniz sahilinə qədər Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsinə dair saziş imzalayıblar. Bu saziş Avropa Komissiyası Prezidentinin şahidliyi ilə imzalanıb:**

"Planımız Azərbaycandan 4 qiqavatlıq yaşıl enerjini nəql etmək imkanını yaradacaq kabeli çəkməkdir. Lakin bu, kifayət etməyə bilər. Burada söhbət artıq razılaşdırılmış həcmlərdən gedir. Lakin planlarımız daha genişdir. Azərbaycanda investisiya mühiti çox müsbətdir. Biz neft və qaz sektoruna böyük sərmayələr cəlb etmişik. İndi isə hədəfimiz bərpaolunan enerjidir. Başqa sözlə, planlarımız böyükdür və əminəm ki, işlərin öhdəsindən gələcəyik".

### "Masdar" ilə əməkdaşlıq Azərbaycanı çox mühüm yaşıl enerji mənbəyinə çevirəcək"

*Prezident bildirib ki, "Masdar" ilə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) 4 qiqavatlıq külək və günəş enerjisinin istehsalına dair razılaşma imzaladılar:* "Bu hələ qısamüddətli layihədir. Ortamüddətli layihələr gücləri 10 qiqavata qədər artıracaq. Bu, tamamilə icraolunandır. Bununla bağlı yol xəritəmiz var. Yalnız həmin layihə nəticəsində, "Masdar" ilə apardığımız əməkdaşlıq Azərbaycanı çox mühüm yaşıl enerji mənbəyinə çevirəcək". Ölkə rəhbəri vurğulayıb ki, bütövlükdə Azərbaycanın beynəlxalq enerji şirkətləri ilə imzaladığı anlaşma memorandumları və sazişlər 22 qiqavata qədər külək və günəş enerjisi istehsal etmək imkanı yaradacaq.

> "Planımız Azərbaycandan 4 qiqavatlıq yaşıl enerjini nəql etmək imkanını yaradacaq kabeli çəkməkdir"

### "Xəzərin Azərbaycan sektorunda 157 qiqavatlıq külək enerjisi imkanları mövcuddur"

*Prezident qeyd edib ki, Xəzərin Azərbaycan sektorunda 157 qiqavatlıq külək enerjisi imkanları mövcuddur:* "Quruda 27 qiqavatlıq, 2020-ci ildə Vətən müharibəsi zamanı azad edilmiş ərazilərdə 10 qiqavatlıq külək və günəş enerjisi, həmçinin Xəzər dənizinin Azərbaycan sektorunda 157 qiqavatlıq külək enerjisi imkanları mövcuddur. Ümumilikdə 200 qiqavata yaxın potensialın olduğunu söyləyən dövlət başçısı qeyd edib ki, bizə kifayət qədər ixrac marşrutları lazımdır. Təbii ki, biz bütün həmin layihələri mərhələli şəkildə icra edirik".

*Dövlət başçısı vurğulayıb ki, təbii qaz ixracımız artmaqda davam edəcək:* "Cəmi iki il əvvəl Azərbaycan Cənub Qaz Dəhlizi meqaenerji layihəsini öz tərəfdaşları ilə başa çatdırıb, Azərbaycandan Cənubi Avropaya gedən inteqrasiya edilmiş boru kəmərləri sistemini qurub. Həmin boru kəmərinin uzunluğu 3500 kilometrdən çoxdur. Təbii qaz ixracımız artır - ötən il 19 milyard kubmetr idisə, bu il 24 milyard kubmetrə çatacaq. Bu rəqəm artmaqda davam edəcək. Buna görə mən bir daha söyləmək istərdim ki, Azərbaycanın bərpaolunan enerji mərkəzlərindən birinə çevrilməsi planlarımız Azərbaycanın öz enerji təhlükəsizliyi ilə bağlı deyil. Belə ki, biz həmin işləri artıq söylədiyim başqa səbəblərə görə aparırıq".

### "Bu gün Azərbaycan nəinki öz enerji tələbatını təmin edir, həmçinin xam neft, təbii qaz və elektrik enerjisi ixrac edir"

Prezident deyib ki, Azərbaycan nəinki öz enerji tələbatını təmin edir, həmçinin xam neft, təbii qaz və elektrik enerjisi ixrac edir: "Biz Azərbaycanda bərpaolunan enerji mənbələrini öz enerji təhlükəsizliyimizin təmin olunması üçün inkişaf etdirmirik, enerji təhlükəsizliyimizi hələ bir neçə il əvvəl təmin etmişik. Bu gün Azərbaycan nəinki öz enerji tələbatını təmin edir, həmçinin xam neft, neft məhsulları, təbii qaz, neft-kimya məhsulları və elektrik enerjisi ixrac edir. Bərpaolunan enerji ilə bağlı proqramımız tamamilə fərqli gündəliyə malikdir. Birincisi, bu, onunla bağlıdır ki, nəhəng potensial var. İkincisi, onun sayəsində biz ixracımızı şaxələndirəcəyik. Əlbəttə ki, nəticədə iqtisadiyyatımızın yeni ekoloji təmiz sektoru yaranacaq".

**İsmayıl**

# Mövlud Çavuşoğlu: ABŞ-dan "F-16"ların alınması prosesi uğurla irəliləyir



**Bosniya və Herseqovinanın xarici işlər naziri xanım Bisera Turkoviç Türkiyəyə səfər edib.**

**Azərtac xəbər verir ki, Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu nazir Bisera Turkoviç ilə Ankarada görüşüb. Sonra Türkiyə ilə Bosniya və Herseqovinanın diplomatik heyətləri bir araya gəliblər.**

Keçirdikləri birgə mətbuat konfransında Türkiyə-Bosniya və Herseqovina münasibətlərinin yüksələn xətlə inkişaf etdiyindən məmnunluqlarını ifadə edən nazirlər qarşılıqlı əməkdaşlığın tərəflər üçün faydalı olduğunu ifadə ediblər.

Qeyd olunub ki, ticarət həcminin artırılması, sərmayə qoyuluşu, beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığın gücləndirilməsi tərəflər üçün əhəmiyyətlidir. Ümumilikdə Türkiyə-Bosniya və Herseqovina münasibətlərinin inkişaf perspektivləri yüksəkdir.

Türkiyənin Bosniya və Herseqovinanın suverenliyini, ərazi bütövlüyünü dəstəklədiyini xatırladaraq, gündəlikdə duran digər məsələlərə də münasibət bildirən nazir Mövlud Çavuşoğlu məlumat verib ki, ABŞ-dan "F-16"ların alınması prosesi uğurla irəliləyir.

Türkiyə-Yunanıstan münasibətlərində tarazlığın pozulmağa başladığını diqqətə çatdıran nazir M. Çavuşoğlu deyib ki, ABŞ kimi bir müttəfiqin balansa diqqət yetirməsi lazımdır.

*Mövlud Çavuşoğlu Bosniya və herseqovinalı həmkarını Antalya Diplomatik Forumuna dəvət edib.*




## Zelenski 162 nəfər azərbaycanlıya Ukrayna vətəndaşlığı verib

**2022-ci ildə Ukrayna vətəndaşlığını alan Azərbaycan vətəndaşlarının sayı məlum olub.**

Ukrayna Dövlət Miqrasiya Xidmətindən "Report"un Şərqi Avropa bürosunun sorğusuna cavab olaraq bildirilib ki, il ərzində ümumilikdə 162 nəfər Azərbaycan vətəndaşı Ukrayna vətəndaşlığını alıb.

Bunlardan 14 nəfər Ukrayna prezidenti fərmanı ilə vətəndaşlıq alıb. Vətəndaşlıq alanlardan 2-si uşaqdır.

*Qeyd edək ki, 2022-ci ilin əvvəlindən Rusiyanın geniş miqyaslı hücumu nəticəsində Ukraynada müharibə gedir.*

## Ərdoğanla Putin arasında telefon danışığı olub

### Ukrayna ətrafında vəziyyətlə bağlı fikir mübadiləsi aparılıb



**Rusiya və Türkiyə prezidentləri Vladimir Putinlə Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.**

"Report" xəbər verir ki, bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb.

Tərəflər Rusiya-Türkiyə əməkdaşlığının hərtərəfli inkişafına sadiq olduqlarını bir daha təsdiq ediblər. Müzakirə mövzularına enerji sektorunda əməkdaşlıq, o cümlədən Rusiya təbii qazının tədarükü və Türkiyədə regional qaz qovşağının yaradılması daxildir.

Həmçinin Ukrayna ətrafında vəziyyətlə bağlı fikir mübadiləsi aparılıb. Ukrayna taxılının Qara dəniz limanlarından ixracı, Rusiyadan qida və gübrə tədarükünün bərpası ilə bağlı 22 iyul 2022-ci il tarixli İstanbul sazişinin icrası nəzərdən keçirilib.

Bundan əlavə, Rusiya, Türkiyə və İranın Suriya nizamlanmasına yardım üzrə Astana prosesi çərçivəsində birgə işinin praktiki əhəmiyyəti də qeyd olunub.

# "Azərbaycan ərəb ölkələri ilə çox sıx təmaslar qurur"

## "Prezident İlham Əliyevin Əbu-Dabiyə səfəri Azərbaycanın qeyri-neft sektorunun da inkişafına təkan verəcək"



**"Bu mühüm toplantıda iştirak etmək üçün məni dəvət etdiyinə görə Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə təşəkkürümü bildirmək istəyirəm. Bu auditoriya qarşısında çıxış etməkdən böyük şərəf hissi duyuram. Dünən bizim cənab Prezidentlə əla görüşümüz oldu. Bu, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlərin bir çox sahədə strateji əhəmiyyətini bir daha təsdiqlədi".**

Bu sözləri Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında keçirilən Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışında çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyev söyləyib.

Ölkə rəhbəri qazandığı böyük nailiyyətlər və sürətli inkişaf münasibətilə Birləşmiş Ərəb Əmirliklərinin Prezidentini və xalqını təbrik edib.

Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin dünyanın ən sabit, inkişaf etmiş və uğurlu ölkələrindən birinə çevrildiyini bildirərək deyib: "Biz Sizin Azərbaycandakı qardaşlarınız olaraq, gördüyünüz işlərdən çox fərəhlənirik".

**Səfərin kodlarını "Şərq"ə açan politoloq İlqar Vəlizadə bildirib ki, Azərbaycan ərəb ölkələri ilə çox sıx təmaslar qurur:**

"Xüsusən də Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) ilə yaşıl enerji ilə bağlı layihələrimiz var. Bu təkcə ikitərəfli münasibətlərin yox, eyni zamanda Azərbaycanın enerji baxımından ixrac potensialının artırılması üçün çox vacibdir.

Həmçinin Avropa İttifaqı və bizim tərəfdaşımız olan ölkələr bu layihənin reallaşdırılmasında maraqlıdırlar. Bu səbəblə də Azərbaycan və BƏƏ arasındakı münasibətlərə regional kontekstdən baxmaq lazımdır.

Digər tərəfdən son zamanlar turizm sahəsindəki əlaqələrimiz də artıb. Hələ pandemiya dövründə ərəb ölkələrindən gələn turistlərin sayı xeyli çoxalmışdı. Bu səfər həm də Azərbaycanın qeyri-neft sektorunun inkişafına da təkan verəcək. Yəni emal sənayesinin inkişafı planlaşdırılır".

**Nihat Müzəffər**

## Rəsmi Bakı Vardanyanla bağlı qəti mövqeyini aidiyyəti beynəlxalq subyektlərə çatdırıb



# Son döyüş başladı

## Vardanyan-Arutyunyan-Paşinyan arasında münaqişənin açıq fazaya keçməməsi mövcud reallığı dəyişmir

**Qarabağda separatçı rejimin "rəhbərliyi" - Araik Arutyunyan və Ruben Vardanyan istefaya gedir. Eyni zamanda qondarma "milli təhlükəsizlik xidmətinin direktoru" Armen Akopcanyan da "vəzifə"dən" uzaqlaşdırılır. Bu barədə "Hraparak" nəşri yazıb. Məlumata görə, Arutyunyan qondarma rejimin keçmiş "rəhbəri" Bako Saakyanla "dövlət naziri"nin dəyişdirilməsi məsələsini müzakirə edib.**

Vardanyanın getməsindən sonra Bakının təzyiqinin azalacağı düşüncəsi var. Nəşr yazıb ki, Vardanyan Araik Arutyunyanın xahişi ilə gedir: "Daha doğrusu, Nikol Paşinyan belə bir tələbin Azərbaycan rəhbərliyi tərəfindən irəli sürüldüyünü separatçılara deyib. Bakı açıq şəkildə bildirib ki, Vardanyan arzuolunmaz şəxsdir və Qarabağı tərk etməlidir. Qarabağda "siyasi qüvvələr" buna qarşı çıxır, onlar hesab edirlər ki, Bakının hansısa tələbi icra olunarsa, daha heç nə edə bilməyəcəklər. Lakin Vardanyandan sonra Araik Arutyunyanın özü də istefaya gedəcək, məqsəd gərginliyin azalması, Bakının istəklərinin yerinə yetirilməsidir. Eyni zamanda "milli təhlükəsizlik xidmətinin direktoru" da "postun"dan göndərilir". İstefa verəcəyi xəbərləri yayıldıqdan sonra Ruben Vardanyan feysbuk profilində bunu təkzib edib və "hər kəsi birliyə" çağırıb. Əlavə edib ki, "Araik Arutyunyanın və parlamentin də istefası qəbuledilən deyil".

Qeyd edək ki, separatçıların qondarma "parlamenti"nin, o cümlədən, Arutyunyanın da istefaya gedəcəyi haqda məlumatlar yayılıb. Bu məlumatlara istinadən irəli sürülən versiyalardan biri belədir ki, bununla rejim tamamilə ləğv olunacaq. Separatçı "parlamentin spikeri" Artur Tovmasyan "İravunk" qəzetinə açıqlamasında qondarma rejimdə növbədənkənar "parlament" və "prezident" "seçkiləri"nin olacağını istisna etməyib. Onun bu açıqlaması yayılan məlumatları da dolayısı ilə təsdiq edib. Vardanyan israrla məlumatları təkzib etsə də, "MediaHub" teleqram kanalı onun bu gün istefa verəcəyi haqda məlumat yayıb. "Hraparak" nəşri isə yazır ki, məsələ Vardanyandan "daha böyük yerdə" həll edilib və Bakının tələbləri qarşısında qondarma rejimin "rəhbərliyi" Qarabağı tərk edəcək.

> Baş nazir həm hakimiyyətə, həm də Azərbaycanla danışıqlara görə ciddi pressinq qarşısında qalacaq

**Politoloq Zaur Məmmədov deyib ki, Vardanyan-Arutyunyan- Paşinyan arasında münaqişənin açıq fazaya keçməməsi mövcud reallığı dəyişmir:** "Son 4 gündə Vardanyanın teleqram kanalları Arutyunyanın imicinə zərbə vurmaq üçün əllərindən gələni etdilər. Dayanmaq qərarına gəlsələr də, əslində hər şey hələ indi başlayır.

**Ermənistanda olduğu kimi, Qarabağ ermənilərı arasında da "hakimiyyət" davası böyüyəcək. Belə gedişlə ən çətin vəziyyətdə Paşinyan qala bilər. B**aş nazir həm hakimiyyətə, həm də Azərbaycanla danışıqlara görə ciddi pressinq qarşısında qalacaq. Rəsmi Bakı Vardanyanla bağlı qəti mövqeyini aidiyyəti beynəlxalq subyektlərə çatdırıb".

**Siyasi şərhçi Aqşin Kərimov isə bildirib ki, Ruben Vardanyan Rusiya layihəsidir, amma fikir verirsinizsə, Qərb platformaları bundan çox narahat deyil:** "Ümumilikdə Rusiyanın regionda sıxıb suyunu çıxarmaq istəyən Qərb Vardanyan mövzusunda susqun təsir bağışlayır. Vardanyan Putinin qeyri-leqal pul kisəsidir və çirkli vəsaitlərin yuyulub ofşor zonalara transferi işini görən fiqurlardan biridir. Deməli, Vardanyan Rusiya ilə Qərb arasında qanunsuz bağ yaradan bir teldir.

Bunu sübut edə biləcək fakt odur ki, Vardanyan vaxtı ilə Putinə yaxın olan "Troyka Dialoq" İnvestisiya Bankına başçılıq edib. Bu, Bankın ofşor şirkətlərin geniş şəbəkəsi yaratdığı Avropa İttifaqının dəstəyi ilə aparılan işlə sübut olunub.

Ofşor şirkətlər Vardanyan vasitəsilə Rusiyadan qeyri-qanuni gəlirlərin nağdlaşdırılaraq çıxarılmasına nail olub. Söhbət 76 şirkətdən və 4.6 milyard dollardan gedir. Təbii ki, ortada böyük həcmli pullar varsa, bu zənciri yaradan şirkətlər siyasətə də təsir göstərir. Nüfuzlu analitik Tomas De Vaal bu yaxınlarda Vardanyanı az qala Qərbin layihəsi kimi qələmə verdi. Məncə, cənab Vaal məhz çirkli layihələrə diqqət çəkmək istəmişdi. Vardanyan Rusiya üçün strateji layihədir. Ancaq Qərb üçün strateji deyil, lakin sərfəli "kadrdır".

**İsmayıl Qocayev**



# Ərəb dünyası üçün Azərbaycan vacib ölkədir

## Bu səfər həm də ərəb ölkələri ilə əlaqələr qurmağa çalışan Ermənistana yerinin göstərilməsidir

**Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin rəhbəri Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə yanvarın 15-də Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfər edib. Dövlət başçısı İlham Əliyev ilk növbədə Birləşmiş Ərəb Əmirliklərinin prezidenti ilə görüşüb. Prezident səfərə dəvətə görə minnətdarlığını bildirib.**

Həmçinin BMT Təhlükəsizlik Şurasında Cənubi Qafqaz regionuna aid müzakirələrdə Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycana göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini, bunun dostluğun və qardaşlığın nümunəsi olduğunu deyib. Ölkə rəhbərləri Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin sülhsevər dövlətlər olduqlarını qeyd ediblər. Regionda sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsi işində göstərdikləri səyləri vurğulayıblar. Söhbət zamanı Azərbaycan ilə Birləşmiş Ərəb Əmirliklərinin siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə sıx əməkdaşlıq həyata keçirdikləri bildirilib. Bu əlaqələrin daha da genişləndirilməsinin vacibliyi vurğulanıb. Dövlət başçıları tərəfindən müəyyənləşdirilmiş siyasi xəttə uyğun olaraq, iki ölkənin müxtəlif səviyyələrdə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin önəmi qeyd edilib. Tərəflər Azərbaycanla BƏƏ arasında bərpa olunan enerji və iqtisadiyyatın şaxələndirilməsi üzrə digər sahələrdə planlar, konstruktiv birgə fəaliyyət imkanları ətrafında fikir mübadiləsi aparıblar. Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan öz növbəsində ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı nailiyyətlər və qələbələr münasibətilə təbriklərini çatdırıb. İşgüzar səfər çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında Azərbaycan Respublikasında 2 QVt gücündə Dənizdə Külək və Hidrogen Layihələrinin işlənməsinə dair Birgə işlənmə sazişi, həmçinin 1 QVt gücündə Günəş Fotovoltaik və 1 QVt gücündə Quruda Külək Layihələrinin işlənməsinə dair Birgə işlənmə sazişi imzalanıb. Prezident İlham Əliyevin həmkarı ilə görüşü BƏƏ-nin televiziya kanalları tərəfindən də geniş işıqlandırılıb. "Abu Dhabi TV", "Al Emarat", "Baynunah", "Dubai TV", "Al Dafra" telekanalları dövlət başçılarının müzakirə etdikləri məsələlər haqqında reportajlar yayıblar. Son illərdə Prezident İlham Əliyevin yürütdüyü uğurlu xarici siyasət nəticəsində Azərbaycanın Avropa ölkələri, türk dünyası ilə olduğu kimi, ərəb dövlətləri ilə münasibətləri də yeni inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycanın ərəb dünyası ilə böyük tarixi-mədəni bağlılığı var. Ərəb ölkələri mütəmadi olaraq Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə öz dəstəyini ifadə ediblər.

**Millət vəkili, tarixçi-alim Musa Qasımlı vurğulayıb ki, Prezident İlham Əliyevin son zamanlarda ərəb dövlətlərində toplantılara qatılmasının, Birləşmiş Ərəb Əmirliklərinə dəvət olunmasının dərin mənası var. Deputatın sözlərinə görə, bu, bir daha göstərir ki, beynəlxalq aləmdə şəxsi nüfuzu yüksək olan Prezident ərəb ölkələrində də arzuolunan və görüşülmək istənilən görkəmli dövlət xadimidir:** "Prezident İlham Əliyev Qoşulmama Hərəkatına sədrlik edərək fəaliyyəti ilə təkcə təşkilatın deyil, ona üzv olan dövlətlərin, o cümlədən ərəb ölkələrinin də beynəlxalq çəkisini, dünya siyasətində rolunu artırıb. Bu isə yaradıldığı vaxtdan bəri Qoşulmama Hərəkatının tarixində nadir hadisədir. Ötən ilin sonlarında BMT Təhlükəsizlik Şurasında Fransa və Ermənistanın Azərbaycan əleyhinə hazırladıqları qətnamə layihəsinə veto qoyan dövlətlərdən biri olan BƏƏ və bütövlükdə ərəb dünyası üçün Azərbaycan Respublikası vacib ölkədir. Bu səfər həm də ərəb ölkələri ilə əlaqələr qurmağa çalışan Ermənistana yerinin göstərilməsidir. Azərbaycan olan yerdə Ermənistan ərəb dünyası ilə əlaqələrdə yalnız axırdan birinci yerdə ola bilər. BƏƏ ilə bütün sahələrdə əməkdaşlıq genişləndirilir. Enerji sahəsində əməkdaşlıq ölkəmizdə alternativ enerjnin tətbiqinə və qazdan istifadənin azalmasına, daxildə və ixracatda yeni imkanların yaranmasına gətirəcək. Dünya siyasətində Azərbaycanın yeri daha da möhkəmlənəcək və rolu artacaq".

**Millət vəkili, iqtisadçı Vüqar Bayramov deyib ki, Prezident İlham Əliyev Əbu-Dabi Dayanıqlılıq Həftəsinin açılış mərasimində iştirak edib.** Deputat diqqətə çatdırıb ki, Masdarın ev sahibliyi etdiyi tədbirin əsas məqsədlərindən biri "COP27" və "COP28" arasında əlaqənin təmin edilməsi, iqlim dəyişiklikləri, sərmayə və texnologiyaların genişləndirilməsi üzrə əməkdaşlıq platformasının dəstəklənməsidir: "Artıq 15 ildir ki, bu tədbir Birləşmiş Ərəb Əmirliyi (BƏƏ) tərəfindən təşkil olunur. 2023-cü ilin ilk beynəlxalq davamlılıq toplantısı olan bu tədbir iqlim dəyişiklikləri və dayanıqlı inkişaf üzrə yüksək səviyyəli müzakirələrin təşkilini reallaşdıracaq. Bütövlükdə, Azərbaycan Prezidentinin BƏƏ-də keçirdiyi ikitərəfli görüşlər və müzakirələr ölkəmizə bərpa olunan enerji sahəsində daha çox sərmayə və texnologiyanın cəlb edilməsinə imkan verəcək. Bu, Qarabağ və Şərqi Zəngəzurun iqtisadiyyatının formalaşmasına daha çox investisiya cəlbi də deməkdir".

**İsmayıl Qocayev**

# Davosda Dünya İqtisadi Forumu başlayıb




**Davosda Dünya İqtisadi Forumu başlayıb.**

**Yanvarın 20-dək davam edəcək Foruma bir çox beynəlxalq təşkilatların və iş dünyasının nümayəndələri dövlət və hökumət başçıları qatılıb.**

Bildirilib ki, 30 ölkədən 2 700-dən çox iştirakçının 50-si dövlət və ya hökumət başçısıdır.

Dünya İqtisadi Forumu bu il "Parçalanmış dünyada əməkdaşlıq" mövzusu altında təşkil olunub.

Sabah səhər saatlarından etibarən liderlərin çıxışları və panel müzakirələri başlayacaq. Forumun yerləşdiyi ərazidə və Davos şəhərinin girişində sıx təhlükəsizlik tədbirləri görülüb.

Dünya İqtisadi Forumunun bəyanatına görə, Almaniya Kansleri Olaf Şolts, Avropa Komissiyasının Prezidenti Ursula von der Leyen, Avropa Parlamentinin sədri Roberta Metsola, Cənubi Koreya Prezidenti Yoon Suk Yeol, İspaniyanın Baş naziri Pedro Sançes, İsveçrə Konfederasiyasının Prezidenti Alain Berset, Belçikanın Baş naziri Aleksandr De Kroo, Finlandiyanın Baş naziri Sanna Marin, Yunanıstan Baş naziri Kiryakos Mitsotakis, İrlandiyanın Baş naziri Leo Varadkar, Moldova Prezidenti Maya Sandu, Hollandiyanın Baş Naziri Mark Rutte, Filippin Prezidenti Ferdinand Markos, Polşa Prezidenti Andjey Duda, Serbiya Prezidenti Aleksandar Vuçiç, ABŞ-ın İqlim məsələləri üzrə xüsusi nümayəndəsi Con Kerri, ABŞ Milli Kəşfiyyatının direktoru Avril Haynes, Kanada Baş nazirinin müavini və maliyyə naziri Kristia Friland, Çin Baş nazirinin müavini Liu He, Pakistanın xarici işlər naziri Bilaval Bhutto Zərdari, Avropa Mərkəzi Bankının (AMB) Prezidenti Kristin Laqard, həmçinin BMT Baş katibi Antonio Quterreş, NATO-nun Baş katibi Yens Stoltenberq, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Qebreyesus və Beynəlxalq Enerji Agentliyinin Prezidenti Fatih Birol foruma qatılacaq rəsmilər arasındadır. (apa)

Forumda ABŞ, Çin və Rusiya kimi ölkələrdən liderlər səviyyəsində iştirak olmayacaq, Türkiyədən isə sammitdə rəsmi iştirak nəzərdə tutulmur.

# ATƏT sədri Rusiyanı Ukraynaya qarşı müharibəni dayandırmağa çağırıb

**"Rusiya Ukraynaya qarşı müharibəni dərhal dayandırmalı və qoşunlarını ölkə ərazisindən çıxarmalıdır".**

"Report" "RBC-Ukraine" agentliyinə istinadən xəbər verir ki, bunu ATƏT sədri Buyar Osmani Ukraynanın xarici işlər naziri Dmitro Kuleba ilə Kiyevdə keçirdiyi birgə mətbuat konfransında bildirib. "ATƏT sədri kimi buradayam və Rusiyanı bu müharibəni dayandırmağa, hərbi qüvvələrini və qoşunlarını Ukraynadan çıxarmağa, həmçinin ATƏT-in dəyər və prinsiplərinə sədaqət göstərməyə və diplomatik yola qayıtmağa çağırıram", - o vurğulayıb. Bundan başqa, B.Osmani Rusiyanın Ukraynaya qarşı növbəti təcavüzünü, o cümlədən Dneprdə yaşayış binasına bu yaxınlarda raket hücumunu qınayıb. O qeyd edib ki, Ukrayna ilə bağlı məsələ Şimali Makedoniyanın ATƏT-də sədrliyi dövründə əsas prioritet olaraq qalacaq: "Ukraynanı qətiyyətlə dəstəkləyəcəyik və bu yoldan dönməyəcəyik. Baş verənləri qəbul etməyəcəyik. Əvəzində sülhü bərpa etmək və prinsiplərimizə və öhdəliklərimizə hörmət etmək üçün ATƏT-in bütün vasitələrindən istifadə edəcəyik". Xatırladaq ki, ATƏT-in sədri Buyar Osmani yanvarın 16-da Ukraynaya rəsmi səfərə gedib.



# Revanşistlər prosesin yekunlaşmasına mane olur

## "Yaxın onillikdə Ermənistanla Türkiyə arasında hər hansı ciddi münasibətlərin qurulacağına inanmıram"

**Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində növbəti addımların atıldığı deyilir. Tərəflərin müzakirələri nəticəsində hava yolu ilə yükdaşımaları artıq mümkün olub, qarşılıqlı uçuşlar davam edir. İnsanlar arasında təmas başlayıb və gediş-gəliş nisbətən rahatlaşıb.**

Normallaşma prosesində gözlə görülməyən hadisələr də var. Əvvəllər Türkiyə vətəndaşları Ermənistana səfər etmək üçün vizanı İrəvanın Gürcüstandakı diplomatik nümayəndəliklərindən alırdılar. Çünki Ermənistanla əlaqələr yox idi. İndi bu məsələ də həllini tapıb. Ötən müddət ərzində iki ölkə arasında internet əlaqələri də qurulub. Əvvəllər Ermənistanda internet bütün Türkiyə üçün bağlı idi, indi isə açıqdır. Bəzi başqa humanitar addımlar da atılmaqdadır. Bununla yanaşı, Türkiyə-Ermənistan münasibətlərinin normallaşması üzrə xüsusi nümayəndələr - Serdar Kılıç və Ruben Rubenyan arasında növbəti görüşün nə vaxt baş tutucağı hələ dəqiqləşməyib. Amma bundan sonrakı müzakirələrin Türkiyə, yaxud Ermənistanda baş tutacağı ehtimal olunur. Rəsmi Ankara İrəvanla münasibətlərin normallaşması səylərində səmimi olduğunu dəfələrlə xatırladıb. Qeyd edək ki, xüsusi nümayəndələrin ilk görüşü 2022-ci il yanvarın 14-də Rusiyanın paytaxtı Moskvada keçirilib. İkinci və üçüncü görüş isə fevralın 22-də və mayın 3-də Avstriyanın paytaxtı Vyanada baş tutub. Ötən il oktyabrın 6-da Çexiyanın paytaxtı Praqada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş olub.

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə deyib ki, Qarabağın, xüsusilə Kəlbəcərin 1993-cü ilin aprelində işğal edilməsindən sonra Türkiyə qardaşlıq ənənələrinə sadiq qalaraq işğalçı Ermənistanla bütün əlaqələrini kəsmiş, qapılarını bağlamışdı. Partiya təmsilçisinin sözlərinə, sonrakı dönəmlərdə bir neçə dəfə əlaqələrin bərpası istiqamətində addımlar atılsa da, erməni tərəfin destruktivliyi səbəbindən normal münasibətlər baş tutmayıb:** "Bu gün situasiya dəyişib. Türkiyə Ermənistanın sağlam mövqeyinə normal qarşılıq verəcəyini dəfələrlə bəyan edib. Baş nazir Nikol Paşinyan da münasibətlərin düzəlməsinə tərəfdar olduğunu bildirib. Amma Ermənistan daxilində xaricdən idarə olunan revanşistlər prosesin yekunlaşmasına mane olur. Unutmayaq ki, Rusiya türk-erməni ziddiyyət və düşmənçiliyinin qalmasında maraqlıdır. Həmçinin Qərb də münasibətlərin yumşalması və nəticədə Türkiyənin regionda təsir imkanlarının artmasında maraqlı deyil. Hadisələrin gedişi daxildə və xaricdə olan ermənilərin düzgün mövqe tuta bilməsindən asılı olacaq. İstənilən halda proses başlayır və bu, uzun illər davam edəcək. Yaxın onillikdə Ermənistanla Türkiyə arasında hər hansı ciddi münasibətlərin qurulacağına inanmıram. Bunun üçün hər hansı ciddi zəmin də mövcud deyil".

**İsmayıl Qocayev**

# Almaniya Avropa İttifaqının gücü sayılır

## Bu ölkə Azərbaycanın könlünü almaq üçün üç istiqamətdə məsafə qət etməlidir

**Almaniya Prezidenti Frank-Valter Ştaynmayer Azərbaycan dövlət başçısı İlham Əliyevə zəng edib. Söhbət zamanı prezidentlər Azərbaycan-Almaniya əlaqələrinin mövcud vəziyyətindən məmnunluqlarını ifadə edib və əməkdaşlığın perspektivlərini müzakirə ediblər.**



Regional təhlükəsizlik məsələlərinə toxunan Frank-Valter Ştaynmayer Almaniyanın Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin bilavasitə iştirakı ilə aparılan Avropa İttifaqı-Azərbaycan-Ermənistan üçtərəfli formatını dəstəklədiyini vurğulayıb. Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin dəstəyi ilə həyata keçirilən üçtərəfli danışıqları yüksək qiymətləndirdiyini vurğulayaraq, Azərbaycanın Avropa İttifaqı-Azərbaycan-Ermənistan üçtərəfli formatı çərçivəsində aparılan müzakirələr prosesinə sadiqliyini ifadə edib. Eyni zamanda telefon danışığı əsnasında Azərbaycanın ərazisində olan Xankəndi-Laçın yolundakı vəziyyət müzakirə olunub. Dövlətimizin başçısı bildirib ki, Ermənistanın yolun guya blokada şəraitində olması barədə iddiaları yalandır. Yolda Beynəlxalq Qızıl Xaç Komitəsinin xətti ilə və eləcə də digər humanitar yüklərin sərbəst hərəkəti təmin olunur. Söhbət zamanı prezidentlər bir daha Azərbaycan-Almaniya əməkdaşlığının perspektivlərini yüksək qiymətləndirərək, bu əlaqələrin inkişafı üçün birgə səylərin göstərilməsinin vacibliyini qeyd ediblər.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə açıqlamasında bildirib ki, Almaniya Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsi prosesində özünü neytral mövqedə dayanan dövlət kimi göstərsə də, ölkədəki dairələrdən Bakı əleyhinə tozanaq qaldırılması adi hal alıb. Analitikə görə, Azərbaycanın Cənubi Qafqaz ölkələri içərisindəki hakim mövqeyi, ölkənin Avropanın enerji, təhlükəsizlik və iqtisadi maraqları üçün getdikcə artan əhəmiyyəti Almaniyanı düşündürür:** "Buna görə də Almaniya özünəməxsus məsuliyyəti üzərinə götürməklə Azərbaycanla əlaqədar əlavə dəyər siyasətini formalaşdırmalıdır. Almaniya Avropa İttifaqının gücü olaraq Azərbaycanın könlünü almaq üçün üç istiqamətdə məsafə qət etməlidir. Birincisi, Almaniya beynəlxalq təşkilatlarda Azərbaycan-Ermənistan münasibətləri ilə əlaqədar neytrallığını qorumalı və prosesə xələl gətirə biləcək bəyanatlardan yayınmalıdır. İkincisi, Almaniya ölkədə erməni lobbisinin əlində kuklaya çevrilən siyasətçilərin leksikonunu öz dövlət siyasətinin tərkib hissəsinə qatmamalıdır. Üçüncüsü, Azərbaycanın Türkiyə ilə strateji müttəfiqliyini həzm etməyi bacarmalıdır. Bunlar Almaniyanın Cənubi Qafqazda sabitliyə verə biləcəyi töhfə payıdır. Cənubi Qafqazdakı sabitlik Avropa İttifaqının Qara dəniz cinahı boyunca təhlükəsizlik prinsiplərinə birbaşa təsir edir. Bu səbəbdən Avropa İttifaqı Cənubi Qafqazdakı dəyişikliklərə, o cümlədən Azərbaycanın qüdrətinin artması, gündəlik formalaşdırmasına sürətlə uyğunlaşmalı və regionla bağlı ümumi siyasət hazırlamalıdır".

**A.Kərimova görə, Avropa İttifaqı həmin istiqamətlərdə mühüm addımlar atır. Amma Birliyə üzv olan Fransanın və ona yaxın mövqedə duran dövlətlərin Ermənistan sevgisi Avropanın daxilində mübahisələri alovlandırır:** "Bir tərəfdən Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel etibarlı moderator kimi Azərbaycan-Ermənistan ali səviyyəli danışıqlarını təşkil edərkən, digər tərəfdən Fransa bu prosesi korlayan addımlara gedir. Parisin siyasəti Avropa İttifaqının vahid yanaşmasının həyata keçməsini ləngidir. Buna görə də dövriyyəyə Almaniya salınır. Çünki Berlinin mövqeyi Fransa qədər qərəzli deyil. Şarl Mişel və Almaniya Fransanın Cənubi Qafqaz siyasətindəki avantüraya getmək istəmirlər. Buna görə də mümkündür ki, Avropa İttifaqı səylərini Berlinin vasitəsilə yenidən sınamağı qərara alıb. Ştaynmayerin Əliyevə zəngi Avropa İttifaqının Almaniyanı "Azərbaycanın nəbzini sən yoxla" təlimatına uyğun çalarlara malikdir. Ola bilər ki, cənab Ştaynmayer Əliyevə Avropa İttifaqının moderatorluğu ilə keçirilən görüşlərin pozitiv nəticələrin əldə edilməsi üçün əhəmiyyətindən danışıb. Avropa İttifaqı yenidən İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyanın görüşünü təşkil etməkdə inadkar görünür. Azərbaycan Avropa İttifaqı formatındakı danışıqlardan qaçmır, o şərtlə ki, dialoqa avantürist maraqlar əlavə edilməsin.

Bu baxımdan Almaniya Fransanın axarına qoşulmamaq şərtilə İttifaqın qüdrətli üzvü kimi prosesi qabağa aparmaq gücünə sahibdir".

**İsmayıl Qocayev**






# "Demişdim ki, qarşıda bizi böyük bir müharibə gözləyir"

## Qulu Ağsəs: "Nəzərdə tutduğum böyük müharibə bu gün Xankəndi-Laçın yolundakı aksiyalardır"

"Sizi əmin edirəm ki, aktivistlərimiz öz istəklərinə nail olacaq. Azərbaycan Ermənistanı və ona havadarlıq edən bütün ölkələri Qarabağın Azərbaycan olduğunu tanımağa məcbur edəcək və Paşinyan da bunu təsdiqləyən sülh müqaviləsinə qol çəkəcək"

**Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyası hələ də davam edir. Havanın soyuq və şaxtalı olmasına baxmayaraq, Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı yataqların qanunsuz istismarının dayandırılmasını tələb edən aktivistlər ilk günlərdəki kimi yüksək fəallıq göstərirlər.**

Ekofəallar yolun hər iki tərəfində, hərəkətə maneə törətmədən üzərində Azərbaycan, rus və ingilis dillərində yazılmış plakatlar qaldırıb, şüarlar səsləndirirlər.

Aksiya iştirakçılarının tələbləri ilk gündən olduğu kimi, dəyişməz olaraq qalır. Onlar azərbaycanlı mütəxəssislərin faydalı qazıntı yatarqlarında monitorinq aparması üçün lazımi şəraitin yaradılması, ermənilərin Azərbaycan torpaqlarında ekoloji terrora son qoyulması, Ermənistanla sərhəddə, Laçın istiqamətində ayrıca sərhəd və gömrük nəzarəti postlarının təşkili, Azərbaycan ərazisinə qanunsuz silah daşınmasının qarşısının alınmasını istəyirlər. Ancaq erməni yalanlarına daha operativ reaksiya verən bəzi beynəlxalq təşkilatlar haqlı aksiyaya münasibətdə ikili standartlar nümayiş etdirirlər.

**"Ulduz" jurnalının baş redaktoru, şair Qulu Ağsəs isə Şərq"ə açıqlamasında Xankəndi-Laçın yolundakı aksiyaların ictimai əhəmiyyətindən söz açıb:** "Bu yaxınlarda "Nüvə başlığı" və ya "faites-en bon usage" adlı bir yazı yazmışam. Orada da qeyd etmişəm ki yazının nüvəsi - onun başlığıdı. Odur ki, sərlövhəyə "nüvə başlığı" da demək olar. Mən deyirəm... Sərlövhə - manşet - başlıq demişkən. Son vaxtlar erməni lobbisinin verdiyi "başlıq" Fransa mətbuatında Azərbaycanı "ittiham manşetinə" çevirib. Mənsə Parisə burdan havayı başlıq yollayıram:

Bir aydan çoxdur ki, Laçın-Şuşa yolundakı Azərbaycan sülhməramlıları Rusiya əsgərlərini erməni separatçılarından qoruyur!

Faites-en bon usage. Yəni sağlıqla işlədin...

Yəni mənim nəzərimdə Qarabağdakı sülhməramlılar ruslar yox, Azərbaycanın ekofəallarıdır.

Ordumuz cəmi 44 günə torpaqlarımızı işğaldan azad elədi. Buna Azərbaycan qısamüddətli əməliyyatla öz torpaqlarını ermənilərdən təmizlədi də demək olar. Hansı ki biz illərdir dünyaya məhz bunun mesajını verirdik ki, danışıqlar prosesi ilə alınmasa, ordumuz qısa müddətə Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcək. Sözümüzü tutduq.

Onu da deyim ki, 44 gün ərzində baş verənlərin mətbuatda müharibə kimi təqdim edilməsinə qarşıyam. Müharibə başqa bir dövlətin ərazisi uğrunda gedən döyüşə deyilir. Biz isə öz torpaqlarımızda antiterror əməliyyatı keçirmişik. Ağdamın azad olan kəndi işğalda olan digər kəndləri ilə müharibə aparası deyil ki!? Biz ordumuzun və xalqımızın əzmi nəticəsində torpaqlarımızı ermənilərdən təmizlədik. Amma 44 günlük döyüşlərdən sonra da demişdim ki, qarşıda bizi böyük bir müharibə gözləyir. Və nəzərdə tutduğum böyük müharibə bu gün Xankəndi-Laçın yolundakı aksiyalardır. Bu müharibənin isə 44 günə sonlanacağını zənn etmirəm. Bəlkə 80, bəlkə 100, bəlkə də 180 gün olacaq.

> "Bu müharibənin isə 44 günə sonlanacağını zənn etmirəm. Bəlkə 80, bəlkə 100, bəlkə də 180 gün olacaq"

Aksiyanın məqsədi, aktivistlərin tələbi o qədər aydın və sadədir ki, hansısa bir ölkənin buna siyasi don geyindirməsi mümkün deyil. Halbuki Rusiya, Fransa başda olmaqla ermənilərin havadarlığını edən ölkələr bizə ləkə yaxmaq üçün dəridən-qabıqdan çıxırlar. Anlamırlar ki, ora toplaşan gənclər haqlı olaraq öz torpaqlarında nə baş verdiyindən xəbərdar olmaq, Qarabağ bölgəsindəki faydalı qazıntı yataqlarının qanunsuz istismarına mane olmaq istəyirlər. Əslində istismarın qanuni və ya qanunsuz olmasının da elə bir əhəmiyyəti yoxdur. Ermənipərəst Qərb mediasına, xüsusilə baş verənlərə siyasi don geyindirərək aksiyanı dünyaya Azərbaycanın erməniləri blokadaya alması kimi təqdim edən ölkələrdən soruşuram, ermənilərin bizim yataqda nə işi var!? Azərbaycanlılar yolu bağlayıb bizi incidir deyərək dünyaya car çəkən ermənilərdən soruşuram, hansı sizi? Siz kimsiniz axı?! Məgər dövlətinizin başçısı Nikol Paşinyan, o cümlədən sizə havadarlıq edən Fransa, Rusiya kimi dövlətlər dəfələrlə etiraf ediblər ki, bütün dünya Qarabağı Azərbaycan ərazisi kimi tanıyır. "Qarabağ Azərbaycandır" deməyə hünərləri çatmasa da, Qarabağın bizim torpaqlarımız olduğunu qəbul edirlər. Bəs onda bizim olan torpaqlarda separatçıların vandalizminə niyə göz yumurlar? Ermənilərin bizim torpaqlarımızda separatçı kimi nəfəs almaqlarının özü belə ekologiyamıza ziyandır".




**Q.Ağsəs deyib ki, Laçın-Xankəndi yolundakı aksiyanı ermənilərə zülm kimi dəyərləndirən insanları Şuşaya aparıb oradan aşağıdakı mənzərəni göstərmək lazımdır:** "Bir tərəfdə Xankəndidə bizim "divan tutduğumuz", "yolu bağlayıb" "ac qoyduğumuz" ermənilərin necə rifah içərisində yaşadığına, o biri tərəfdə isə erməni separatçılarından azad etdiyimiz kəndlərə baxsınlar. Bu kəndlərdə bir dənə həyat nişanəsi yoxdur. Buna rəğmən regionda əmin-amanlıq olsun deyə biz onlara sülh təklif edirik. Bu bizim bir dövlət və millət olaraq böyüklüyümüzün təzahürüdür. Yox əgər ermənilər bizim orada aksiya keçirməyimizdən narahat olurlarsa, qapımız açıqdır. İstədikləri ölkədə, istədikləri yerdə gedib yaşaya bilərlər. Gedərkən unitazlarını da özləri ilə aparmağı unutmasınlar. Bir də əziyyətə düşüb arxalarınca biz atmayaq ! Yox əgər məhz Xankəndidə qalmaq, amma daha rahat bir həyat yaşamaq istəyirlərsə, Azərbaycan Respublikasının vətəndaşlığını qəbul edib, bizim qanunlarımızla yaşamağı seçsinlər".

Aksiyanın nəticəsinə gəldikdə isə şair deyib ki, oxucularımı heç vaxt aldatmamışam. Alnım açıqdır: "İllər əvvəldən deyirdim ki, Azərbaycan öz torpaqlarını işğaldan azad edib, ərazi bütövlüyünü bərpa edəcək. Biz 44 günlük qələbədə buna nail olduq. İndi də sizi əmin edirəm ki, aktivistlərimiz öz istəklərinə nail olacaq. Bu aksiyanın sonunda, yoxsa fərqli bir aksiyanın nəticəsində, fərq etməz. İnanıram ki, Azərbaycan mümkün olan bütün variantlardan istifadə edib, Ermənistanı və ona havadarlıq edən bütün ölkələri Qarabağın Azərbaycan olduğunu tanımağa məcbur edəcək və Paşinyan da bunu təsdiqləyən sülh müqaviləsinə qol çəkəcək".

**Şəymən**



# Dəmir yolu nəqliyyatına maraq da artıb, tələbat da

## Tıxaclardan bezənlərin bu nəqliyyata üstünlük verməsi tamamilə normaldır

**2022-ci ildə "Azərbaycan Dəmir Yolları" QSC (AYD) 5 milyon 136 min sərnişin daşıyıb. Bu, 2021-ci illə müqayisədə 84 faiz çoxdur. Ötən il daşınmış sərnişinlərin 5 milyon 8 mini Abşeron dairəvi dəmir yolu xətti üzrə daşımalara aiddir.**

"İl ərzində Bakı-Gəncə-Bakı istiqamətində hərəkətin bərpası təmin edilib, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə əlavə qatarlar xəttə buraxılıb. 2022-ci ildə ölkə üzrə dəmir yolu ilə sərnişin daşınmalarında son on ilin ən yüksək göstəricisi əldə olunub", - deyə qurum bəyan edib. Xatırladaq ki, koronavirus (COVID-19) pandemiyasından əvvəl - 2019-cu ildə Azərbaycan dəmir yolu ilə yerli və beynəlxalq istiqamətlərdə ümumilikdə 3 milyon 875 min 729 sərnişin daşınıb.

**Sərnişinlərin dəmir yollarından istifadəyə daha çox önəm verməsi nəylə bağlıdır? Nəqliyyat məsələləri üzrə mütəxəssis Eldəniz Cəfərov "Şərq"ə açıqlamasında qeyd etdi ki, burada iki səbəb var:**

- Birincisi, əsas problem tıxaclardır. Hər gün hansı yollarda tıxac olduğu rəsmi şəkildə açıqlanır. Baxırsan ki, paytaxt üzrə avtomobillərin əsas hərəkət yollarında tıxaclar yaşanır. O cümlədən də Bakı-Sumqayıt magistral yolunda. Mərkəzdən "20 yanvar" dairəsinədək, oradan da şəhərətrafı bütün istiqamətlərdə - Sulutəpə, Xırdalan, Masazır, həmçinin də Sumqayıt şossesində avtomobillər, sərnişinlər saatlarla tıxacda qalır. Dəmir yolları bu baxımdan daha rahat yerüstü nəqliyyat vasitəsidir. Doğrudur, Bakı-Sumqayıt-Bakı qatarının intervalı ilə bağlı narazılıqlar olur, gecikmələr baş verir.

> "Sərnişin tələbatı nəzərə alınaraq, hesab edirəm ki, bu istiqamətdə daha ciddi işlər görülməli, dəmir yolu nəqliyyatının hərəkət intensivliyi təmin edilməlidir"

Lakin yenə də saatlarla tıxacda qalmaqdansa, dəmir yolu ilə hərəkət daha münasibdir. Bu mənada "Azərbaycan Dəmir Yolları" QSC-nin məlumatı həqiqəti əks etdirir. Ötən il daşınmış 5 milyon 136 min sərnişinin 5 milyon 8 mininin Abşeron dairəvi dəmir yolu xətti üzrə daşımalara aid olması onu göstərir ki, dəmir yolu nəqliyyatına maraq da artıb, tələbat da. Bakı-Sumqayıt qatarı da Abşeron dairəvi dəmir yolu xəttinə aiddir. Tıxaclardan bezənlərin dəmir yolu nəqliyyatına üstünlük verməsi də tamamilə normaldır. İkinci səbəb isə avtobus çatışmazlığı ilə əlaqədardır. Yay aylarında daşıyıcı şirkətlər xəbərdarlıq etmişdi ki, bu sahədə problemlər var, avtobuslar köhnədir, istismara yararsızdır, eyni zamanda gediş haqqının rentabelli olmaması da kəskin problem kimi özünü göstərir. Bildirmişdilər ki, vəziyyətin dəyişməsi üçün konkret addımlar atılmasa, ictimai nəqliyyatın hərəkətində problemlər yaranacaq. Xəttə daha az avtobus çıxacaq. Dedikləri kimi də oldu. Hazırda görünür ki, daha az avtobus marşruta buraxılır, sərnişinlər dayanacaqlarda uzun müddət gözləməli olurlar, sonra da sıxlıq yaranır. Daşıyıcı şirkətlər gediş haqqının qaldırılmaması müqabilində dotasiya tələb edir, bu məsələ isə hələ ki həllini tapmayıb. Əslinə qalsa, daşıyıcı şirkətləri çox da qınamaq olmur. Ümumi vəziyyət onlara da təsir edir. Odur ki, sərnişinlər dəmir yollarından istifadəyə üstünlük verir. Sərnişin tələbatı nəzərə alınaraq, hesab edirəm ki, bu istiqamətdə daha ciddi işlər görülməli, dəmir yolu nəqliyyatının hərəkət intensivliyi təmin edilməlidir. Bu həm sərnişinlərin rahatlığını təmin edər, həm də tıxaclardan xilas yolu olar.

*E.Cəfərov qeyd etdi ki, ümumilikdə Azərbaycan dəmir yollarında qatarların hərəkətinə məhdudiyyət pandemiya ilə əlaqədar qoyuldu. Pandemiyanın aradan qalxması ilə dəmir yollarının bir qismi hərəkət üçün açıldı. Sürət qatarları xəttə buraxıldı. Bakı-Gəncə-Bakı sərnişin qatarının hərəkəti bərpa edildi. Amma məsələn, daha çox sərnişin tələbatı yaşanan Bakı-Qazax-Bakı sərnişin qatarının hərəkəti hələ də bərpa edilməyib. Ölkəmizin qərb regionlarına qatarlar işləmir:*

- Bunun da səbəbi odur ki, hazırda dəmir yollarının xeyli hissəsinin yenilənməyə ehtiyacı var. Həm dəmir yolları yenilənməlidir, müasir standartlara uyğunlaşdırılmalıdır, həm də vaqonlar. Belə məlumatlar var ki, 2024-cü ilin əvvəlinədək bu prosesin başa çatdırılması gözlənilir. Belə olarsa, 2024-cü ildə yəqin ki, Bakı-Qazax qatarı da hərəkətə gələcək.

**Məlahət Rzayeva**

# Vasif Talıbovun "şrekləri" imkan verməyib

## "Naxçıvanda rabitə və internet xidmətləri Mozambikdən də aşağı səviyyədə olub"

**"Muxtar respublikada internetin keyfiyyəti yaxşılaşdırılır. Vasif Talıbovun dövründə Naxçıvanda bərbad vəziyyətdə olan xidmətlərdən biri də internet idi". Bu barədə "TNS" İnformasiya Agentliyinin baş redaktoru, naxçıvanlı jurnalist Tural Səfərov deyib.**

*Baş redaktor bildirib ki, Rövşən Məmmədovun Naxçıvan rabitəsinə rəhbərlik etdiyi dövrdə bu sahədə ciddi əhəmiyyətli heç bir iş görülməyib:* "İnternet xidmətlərindən "qaz vurub, qazan dolduran" sabiq nazir əhalini keyfiyyətli rabitə və internet xidmətləri ilə təmin edə bilməyib. İllər boyu bu sahəyə milyonlarla manat vəsait ayrılsa da, Naxçıvanda rabitə və internet xidmətləri obrazlı desək, Mozambikdən də aşağı səviyyədə olub. Apardığım araşdırmaların nəticəsinə əsasən deyə bilərəm ki, son bir neçə ildə bu sahədə fəaliyyət göstərənlər yeniliklərə çalışsalar da, Vasif Talıbovun "şrekləri" buna imkan verməyib. Bunun dərin səbəbləri var və bu barədə ətraflı yazacağam. İndi görünür ki, Naxçıvanda iş görmək, yenilik etmək, əhaliyə yüksək



səviyyədə xidmət göstərmək istəyən məmurlar var. Sadəcə olaraq onlara şərait yaratmaq və mane olmamaq lazımdır. İnanıram ki, Naxçıvanın Rabitə və Yeni Texnologiyalar Nazirliyi bu sahədə ciddi uğurlara imza atacaq. Təklif edirəm ki, Naxçıvanda internet tariflərinə yenidən baxılsın".

**İsmayıl**

# Paşinyan eyni zamanda iki stulda otura bilməyəcək

## Elxan Şahinoğlu: "Əlbəttə, baş nazir Rusiyadan qopmanın ağır nəticələrini də proqnozlaşdırmağa çalışır"



**"Rusiya Prezidenti Vladimir Putinin başı Ukraynadakı işğalçı müharibəyə qarışıb". Bu barədə "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib.**

Analitik bildirib ki, Putinin başı qarışıq olduğu üçün Ermənistanın Baş naziri Nikol Paşinyanın Rusiya və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı əleyhinə səsləndirdiyi açıqlamalarına Rusiya prezidentinin sözçüsü Dmitri Peskov və Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarova cavab verirlər:

"Zaxarova son mətbuat konfransında Kremlin Paşinyana mesajını təxminən bu şəkildə göndərib: "Bizimləsən, yoxsa Qərbləsən?". Paşinyan bu suala konkret cavab verə bilmir. Əlbəttə, Paşinyan daxilən Qərblədir, ancaq Ermənistanın və erməni separatizminin reallıqlarını nəzərə alaraq Rusiyadan qopmanın ağır nəticələrini də proqnozlaşdırmağa çalışır. Paşinyan eyni zamanda iki stulda otura bilməyəcək, Zaxarovanın təbirincə desək, seçimini etməlidir. Seçim Paşinyanın mətbuat konfransında elan etdiklərini reallaşdırmasından keçir. Ermənistan KTMT-yə üzvlükdən imtina etməli, Kremldən Rusiyanın Ermənistandakı hərbi bazasının ləğvini istəməlidir".

**İsmayıl**

# Konkret yol xəritəsi ortaya qoyulub



## Yaxın gələcəkdə Qərbi Azərbaycana qayıdış prosesi başlayacaq

**Qərbi Azərbaycan İcması indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların beynəlxalq konvensiyalara əsasən, geriyə qayıtmaq hüququ əsasında işini davam etdirir. İcmadan bildirilib ki, geniş ictimaiyyət bu məsələyə yaxından maraq göstərir. Vurğulanıb ki, alimlər, mütəxəssislər, sadə vətəndaşlar İcma ilə əlaqə saxlayaraq konsepsiyaya dair öz düşüncə və təkliflərini təqdim edirlər.**

Daxil olan ideya və təkliflər layihənin hazırlanması işində faydalı olub. Bununla əlaqədar olaraq, İcma ictimaiyyətə müraciət edərək, ”Qayıdış Konsepsiyası”nın layihəsinə dair təkliflərini təqdim etməyə çağırıb. Müraciətdə qeyd olunub ki, beynəlxalq ümumi hüquq, humanitar hüquq, insan hüquqları, postmünaqişə dövründə reabilitasiya və reinteqrasiya, qaçqınların hüquqları kimi mövzularda ixtisaslaşmış mütəxəssislərin rəy və təkliflərinə xüsusilə böyük ehtiyac var. Təkliflər Azərbaycan, ingilis, rus, fransız və ya alman dillərinin birində təqdim edilə bilər. Xatırladaq ki, Qərbi Azərbaycan İcması bir neçə gün əvvəl beynəlxalq təşkilatlara çağırış edərək Ermənistan hökuməti qarşısında tələblər irəli sürmüşdü.

**Millət vəkili, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı ”Şərq”ə açıqlamasında bildirib ki, Qərbi Azərbaycan İcmasının son günlər sərgilədiyi fəallıq Prezident İlham Əliyevin ötən ilin dekabrın 24-də İcmanın bir qrup ziyalıları ilə görüşdə qarşıya qoyduğu vəzifələrin məntiqinə, mahiyyətinə söykənir. Deputat deyib ki, dövlət başçısı həmin görüşdə açıq şəkildə Qərbi Azərbaycanın tarixi torpaqlarımız olması haqqında konkret və birmənalı fikrini ortaya qoydu:** ”Eyni zamanda tarixi ədalətə, hüquqa söykənərək həmin torpaqlara qayıdışımızın vacibliyini önə çəkdi. Bunun üçün konkret yol xəritəsini də ortaya qoydu. Həmçinin Qərbi Azərbaycan İcmasının qarşısında duran vəzifələri detallaşdırdı. Xüsusilə söylədi ki, Qayıdışla bağlı ayrıca bir konsepsiya hazırlanmalıdır. Dövlət başçısının görüşündən və orada önə çəkdiyi məsələlərdən sonra Qərbi Azərbaycan İcması üzərinə düşən vəzifələri yerinə yetirmək üçün təbii olaraq fəal şəkildə hərəkətə keçdi. Artıq bu istiqamətdə proseslər gedir. Bununla bağlı müxtəlif görüşlər keçirilib, qurumlar, komissiyalar yaradılıb. Həmçinin müraciətlər yayılıb. Həmin müraciətlərdə Qərbi Azərbaycan İcmasının qarşısında duran vəzifələrə həm beynəlxalq təşkilatlar, həm də dövlətimiz səviyyəsində lazım olan dəstəyin verilməsi məsələsi əks olunub. Eyni zamanda Ermənistan hökuməti qarşısında tələb qoyulub ki, beynəlxalq hüquq normalarına söykənərək Qərbi azərbaycanlıların öz yurdlarına qayıdışının reallaşması üçün normal şərait yaratsın”.

*Parlament üzvü bəyan edib ki, digər sahələrdə də proses gedir:* ”Cənab Prezidentin dediyi kimi,bununla bağlı yeni ədəbiyyatlar, kitablar hazırlanmalı, elektron səhifələr açılmalı, rəqəmsal portallar yaradılmalıdır. Əldə olan bütün materiallar müxtəlif dillərdə dünya ictimaiyyətinə çatdırılmalıdır. Qərbi Azərbaycandakı tarixi abidələrimizin izi də qalmayıb. Erməni vəhşiliyi onları yerlə-yeksan edib. Ancaq tarixi faktlarda, ayrı-ayrı Avropa ölkələrinin səyyahlarının arxivlərində həmin tarixi abidələrin fotoları var. Bunların hamısı toplanaraq arqumentləşdirilmiş şəkildə, hüquqi əsaslandırılmış formada dünya ictimaiyyətinin diqqətinə çatdırılmalıdır. Hər zaman Ermənistanın yanında duran, ermənilər qədər faşist düşüncələr daşıyan Fransa kimi ölkələri də tarixi faktlarla, arqumentlərlə susdurmalıyıq. Hesab edirəm ki, yaxın gələcəkdə, bir neçə ildən sonra qayıdış prosesi başlayacaq”.

**İsmayıl Qocayev**



# Artıq Türkiyə-İsrail-Azərbaycan üçtərəfli strateji ittifaqı formalaşıb

## Misir də bu ittifaqın bir hissəsi olmağa, ən azından bu strateji ittifaq ilə müsbət münasibət qurmağa çalışacaq

**Yanvarın 16-18 Bakıda İsrailin Avrasiya regionunda olan səfirlərinin və İsrail XİN mərkəzi aparatının məmurlarının böyük işgüzar iclası keçirilir. Tədbirdə Rusiya, Ukrayna, Belarus, Moldova, Özbəkistan, Qırğızıstan, Gürcüstan, Serbiya, Albaniya, Şimali Makedoniya və Kosova səfirləri iştirak edəcək. İsraildən isə XİN-in siyasi məsələlər üzrə direktoru Aliza Bin-Nun iclasa qatılacaq. Toplam 30 nəfərdən çox diplomat ”konfrans”da iştirak edəcək.**

*Politoloq Turab Rzayevin fikrincə, bu görüşü qısaca ”Avrasiya ölkələri səfirlərinin regional konfransı” da adlandırmaq olar. Ekspert xatırladıb ki, keçmişdə uyğun təcrübə Moskva şəhərində baş tutub:* ”İndiki Rusiya-Ukrayna müharibəsi şəraitində postsovet və Balkan ölkələrindəki səfirlərin iclasının keçirilməsi üçün alternativ məkan kimi Bakı seçilib. İsrail XİN Moskvanı Bakı ilə əvəzləyib. Daha bir maraqlı məqam da Misirin Azərbaycana artan marağıdır. 26 yanvarda Misir prezidentinin Bakıya rəsmi səfəri gözlənilir. Azərbaycana ilk dəfə səfər edəcək Misir Prezidenti Sisini nazirlər və digər dövlət qurumları rəhbərlərindən ibarət yüksək rütbəli dövlət rəsmiləri müşayiət edəcək. Yüz milyonluq ərəb ölkəsinin Azərbaycana ilk səfəri tarixi hadisədir. Bundan əvvəl 2020-ci ildə belə bir səfər planlansa da, pandemiya ilə əlaqədar təxirə salınmışdı. Misir Prezidentinin bu səfərinin Qafqazda ancaq Azərbaycan ilə yekunlaşması, Azərbaycanın artan siyasi çəkisinin daha bir sübutudur. Böyük ehtimalla Prezident Sisi Bakı şəhərində gecələyəcək. Buna qədər Azərbaycana Misirdən rəsmi ziyarətə gəlmiş ən yüksək rütbəli dövlət rəsmisi 2019-cu ilin oktyabrında Bakını ziyarət etmiş XİN naziri Sameh Şükri olub”.

*Analitik hesab edir ki, Azərbaycana Ərəb Şərqində artan marağın bir neçə səbəbi var:* ”Bunlardan biri Ukrayna müharibəsindən sonra Orta Dəhlizin əhəmiyyətinin artması və bu dəhlizdə Azərbaycanın oynadığı mərkəzi roldur. Şərqi Asiya ilə Avropa arasında Azərbaycanın körpü mövqeyi indi daha çox əhəmiyyət kəsb edir. Digər tərəfdən, hazırda Azərbaycan Avropanın enerji təhlükəsizliyində xüsusi rol oynayır və Avropa qaz bazarına hər gün daha da çox can atan Misir üçün Azərbaycan ilə təcrübə mübadiləsi çox vacibdir. Misir Şərqi Aralıq qaz yataqları ilə Avropa enerji təhlükəsizliyi strukturunda yer tutmağa çalışır. Daha bir maraqlı məqam da Azərbaycanın bütün bu prosesi həm də Türkiyənin artan regional təsiri ilə balanslaşdırılmış şəkildə aparmasıdır. 2021-ci ilin sonundan etibarən istiləşməyə başlayan Türkiyə-İsrail münasibətlərinin bərpasına açıq şəkildə deyilməsə də, rəsmi Bakı da aktiv dəstək vermişdi”.

**T.Rzayevə görə, artıq Türkiyə-İsrail-Azərbaycan üçtərəfli strateji ittifaqının formalaşdığını demək mümkündür:** ”Son dönəmlərdə Misir də Türkiyə ilə münasibətlərini istiləşdirməyə həvəsli görünür. Azərbaycan Türkiyə və Misir arasında münasibətlərin normallaşması və inkişafında da əhəmiyyətli vasitəçi ola bilər. Eyni zamanda Azərbaycan Misir qazının Avropaya çıxmasında ən böyük maneə - Türkiyə ilə münasibətlərin nizama salınması və Misir TANAP-ının inşasına töhfə verə bilər. Misir ənənəvi olaraq İsrail ilə təhlükəsizlik məsələlərində sıx münasibətləri qoruyub saxlayır. Misir Prezidenti Türkiyə-İsrail-Azərbaycan strateji ittifaqının getdikcə möhkəmlənməsini və bölgənin gələcək təhlükəsizlik arxitekturasının inşasında artan rolunu nəzərə almaya bilməz. Böyük ehtimalla Misir özü də bu ittifaqın bir hissəsi olmağa, ən azından bu strateji ittifaq ilə müsbət münasibət qurmağa çalışacaq”.

**İsmayıl Qocayev**

# Vardanyan Xankəndini zülmətə sürükləyir

## Onun “ağalıq” etməsi hər gün ermənilərin əleyhinə işləyir



**”Qarabağda separatçılara qarşı Azərbaycan ciddi proseslərə başlaya bilər”. Bu sözləri politoloq Məhəmməd Əsədullazadə deyib. Ekspert bildirib ki, Ermənistan Baş naziri Nikol Paşinyanın Qarabağa göndərilən Ruben Vardanyanı müdafiə etməməsi və onu prosesləri qızışdırmaqda ittiham etməsi Kremlin canişinini qəbul etmədiyini göstərir:**

”Ermənistan parlamentinin spikeri də Laçın dəhlizində baş verənlərlə bağlı qeyd edib ki, ölkəsi bu məsələyə qarışa bilməz. Göründüyü kimi, Ermənistan baş nazirinin bu mövqeyi ortaya qoyursa, prinsipcə, Azərbaycanla sülh müqaviləsinin bağlanmasına getməlidir. Amma Baş nazir Nikol Paşinyan yekun sülh müqaviləsində Qarabağ məsələsini dolayı yolla sənədə salmağa çalışır. Təbii ki, Azərbaycan buna gedə bilməz və bu məsələ Azərbaycan üçün bitib. Ermənistan müxalifəti ”Madrid prinsiplərini” və digər məsələləri qabardır. Madrid prinsipləri və müharibədən əvvəl Minsk qrupunun irəli sürdüyü təkliflər tarixdə qaldı. Ermənistan tərəfi və Rusiya yenidən bu məsələyə qayıtmaq üçün bəyanatlar verir. Bu, mümkün deyil. Azərbaycan münaqişəni həll edib və müharibə yolu ilə həll edildən sonra əvvəlki təkliflərin üzərindən xətt çəkilir”.

M.Əsədullazadə qeyd edib ki, Rusiya tərəfindən Qarabağa göndərilən Vardanyanın Xankəndidə qalması hər gün ermənilərin əleyhinə işləyir: ”Özü də bunun fərqindədir və Rusiyanın təsirindən çıxa bilmir. Qarabağa müəyyən bir missiya ilə göndərilən Vardanyan nə Ermənistan tərəfindən, nə də Qarabağda erməni icması tərəfindən qəbul edilir. Azərbaycan Rusiyanın Vardanyanın əli ilə qurduğu planların qarşısını alır”.

**İsmayıl**



# Müharibənin şiddətli mərhələsi başlayır

## Ukrayna ordusu yayı gözləyir. Onlar yay aylarında əks-hücuma keçəcək

**Rusiya ordusu Ukraynanın Dnepr şəhərinin rayonlarından birində çoxmərtəbəli yaşayış binasına raket zərbəsi endirib. Hadisə nəticəsində ölənlərin sayı 40-a çatıb. Bu barədə ”RBK-Ukraina” məlumat yayıb. Xatırladaq ki, yanvarın 15-də paytaxt Kiyev, Dnepr və başqa şəhərlər daxil omaqla Rusiya Ukraynaya raket hücumu edib.**

Rusiyanın xeyli zamandır Ukraynaya qarşı işğalçılıq siyasəti yürütdüyünü deyən politoloq Azər Rəşidoğlu ”Şərq”ə vurğulayıb ki, Kreml Qərbdən maliyyə dəstəyi alan Ukrayna ordusuna güc gələ bilmədiyi üçün raketlərdən istifadə edir: ”Rusiya savaşın ilk vaxtlarında Ukraynanı tamamilə işğal edəcəyini bəyan edirdi. Ancaq uzun müddətdir, onlar məğlub olurlar. Digər tərəfdən Moskvanın texnikaları da sıradan çıxıb. Onlar köhnə tankları döyüş meydanına göndərməyə məcbur qalırlar. Belə texnika ilə davam gətirməyəcəyini anlayan ruslar, uzaq məsafəli raketlərlə yaşayış məntəqələrini vuraraq, Kiyevi danışıqlara məcbur etməyə çalışırlar. Lakin mən Ukraynanın işğalçı Rusiya ilə danışıqlar masasına oturacağına inanmıram”.

Analitikin sözlərinə görə, artıq müharibənin şiddətli mərhələsi başlayır:

”Baş verən son hadisələr cavabsız qalmayacaq. Fikrimcə, Ukrayna ordusu yayı gözləyir. Onlar yay aylarında əks-hücuma keçərək, işğal olunmuş bir çox ərazilərini geri qaytaracaq. Hətta Krımın da ruslardan alınması ehtimalı var.

Qərb isə sanksiyaları daha da artıracaq və Ukrayna qalib gələnədək Moskva ilə danışıqlara getməyəcək. Ümumiyyətlə, son hadisələr onu göstərir ki, Rusiya mülki əhalini qətlə yetirməklə onsuz da aşağıda olan imicini daha da bərbad vəziyyətdə qoyur.

İstənilən halda son nəticə etibarı ilə Ukrayna ordusunun qələbəsi və rus işğalında olan ərazilərini azad etməsi qaçılmaz görünür”.

**Nihat Müzəffər**

# Qərbin Gürcüstanı Rusiyadan qorumaq səyləri davam edir

## Azərbaycanla Türkiyə Gürcüstanın təhlükəsizliyi üçün plan hazırlaya bilər



**”Rusiya Ukraynaya müdaxilə etdikdən sonra Kiyevlə Gürcüstanın münasibətlərinin arasında səd çəkilməyə başlandı və tərəflərin isti əlaqələrini sərinlik əvəz etdi”. Bu barədə siyasi şərhçi Aqşin Kərimov deyib. Ekspert bildirib ki, Gürcüstan Qərbin Rusiyaya qarşı sanksiyalarına qoşulmur, bunun əksini özünün milli maraqlarına təhlükə sayır: ”Tbilisinin davranışları Ukraynanı qıcıqlandırır və Kiyev az qala məcbur edir ki, Gürcüstan mütləq şəkildə Rusiyaya qarşı kampaniyanın iştirakçısı olsun. Soyuqlaşan münasibətlər tezalışan maddə vəziyyətinə gəlir. Bu dəfə isə Ukrayna keçmişə ekskurs edərək Gürcüstana verdiyini tələb edir.**

Ukrayna 2008-ci ildə Gürcüstana verdiyi silahları, ”Buk” zenit-raket komplekslərini geri istəyir. Ancaq Tbilisinin arqumenti budur ki, həmin tədarük hədiyyə kimi deyil, ödəniş əsasında gerçəkləşib. Ukrayna hətta ABŞ-nin Gürcüstana verdiyi ”Javelin” tank əleyhinə sistemlərin də geri alınmasını tələb edir. Bu, aşkar şəkildə Vaşinqtonla Tbilisinin əlaqələrində məqsədli şəkildə gərginlik yaratmaq və ikincini az qala Ukraynadakı müharibənin tərəfinə çevirmək cəhdi kimi qiymətləndirilə bilər. Ukrayna, bəlkə də, ”Buk”ları istəməkdə haqlıdır, amma onun ABŞ-ni də eyni şərtə məcbur etməsi Gürcüstan tərəfindən heç cür başa düşülmür. Əgər ABŞ Ukraynanın sözlərinə qulaq asıb, Gürcüstana silah tədarükünə yenidən baxılmasını nəzərdən keçirsə, bu, Vaşinqton üçün strateji faciə olar. Ancaq ABŞ-nin Gürcüstanı ”silib-süpürmək” səylərinə girişməsi inandırıcı görünmür. Çünki Ağ Ev üçün Tbilisinin həm siyasi, həm də strateji əhəmiyyəti böyükdür”.

Ekspertə görə, Gürcüstanın Moskvanın yaratdığı ərazi münaqişəsindən əziyyət çəkməsi, həmin konflikt zonalarında Rusiyanın hərbi mövcudluğu, Kremldən artan təzyiqlərdən və ölkə daxilində pultu Kremlin əlində olan ”boz kardinallar”dan qorxusu onu ehtiyatlı manevrlərə təhrik edir: ”O, Qərbin dolayı parçası kimi Ukraynaya siyasi dəstək göstərir, lakin hərbi yardımlardan söhbət düşəndə Tbilisinin qorxuları zilə qalxır. Yəni Gürcüstan Rusiyanın Ukraynanı işğala girişməsinin özünə münasibətdə təhlükəli paralellərini görür. Böhrana münasibətdə elə mövqe tutur ki, uçuruma yuvarlanmasın. Gürcüstanın tutumu Qərbə inteqrasiya yolunu seçmiş bir ölkə kimi onun imici üçün elə də xoş seçim sayılmır. Ancaq təhlükəsizlik qayğılarının artması Tbilisinin ehtiyatlarını maksimallaşdırmalıdır. Nə Ukraynanın təzyiqləri, nə də Rusiyanın münaqişə ocaqlarını qıcıqlandırması Gürcüstanın Qərbə yolunu bağlamaq gücündədir. Çünki Gürcüstanın xarici siyasətinin təməli Mixail Saakaşvilinin hakimiyyəti dövründə və ondan sonrakı qısa müddətdə fərqli maya ilə yoğruldu. Tbilisi bununla da bir növ Qərbin strukturları qarşısında öhdəlikləri yerinə yetirəcək bir tələbə statusu qazandı. Gürcüstanın Ukraynaya Kiyevin istədiyi həddə yardım göstərmək həvəssizliyi Qərbin özünü də kompleksə salmır. Çünki Qərb Tbilisinin potensialının, hərbi arsenalının Rusiyanın mümkün təcavüzünün qarşısındakı acizliyini anlayır”.

A.Kərimov qeyd edib ki, Qərbin özü də Gürcüstan üzərindəki manevrlərini ehtiyatlı ölçülərlə qurur: ”Rusiyadan idarə olunan qüvvələrin idarəetmədən tutmuş digər strukturlara qədər sirayət etməsinə qarşı, ola bilsin ki, əks-əməliyyat mövcud deyil. Qərb indi Gürcüstanda çox məhdud səlahiyyətləri olan prezidentlik institutunun ona verəcəyi dəstəkdən bərk yapışır. Prezidentin Qərb, hökumətin isə məcburiyyətdən dolayı Rusiya istiqamətinə əyilməsi Gürcüstanda daxili-siyasi sabitlik üçün təhdidləri alovlandıra biləcək nəsnədir. Belə təhlükəli miqyasın böyüməsi Moskva üçün ”qırmızı cizgi”lərin keçilməsi ilə müşayiət olunsa, bu, Rusiyanın Gürcüstanın sabitliyinə asanlıqla, ucuz başa gələn və effektiv şəkildə zərər verə bilmək potensialını genişləndirəcək. Rusiyanın postsovet məkanındakı hegemonluq taxtında maksimalist mövqeyi regional lövhədəki yerləşmələrə də təsir göstərir. Rusiyanın Gürcüstana hərbi müdaxilə etmək riski Qərb qədər Azərbaycan və Türkiyəni də narahat edir. İpucları tapmaq olar ki, bəlkə də, Bakı və Ankara Rusiya ilə isti münasibətlərini işə salaraq Moskvanın Tbilisini cəzalandırmasına mane olurlar. Çünki Gürcüstan Azərbaycanla Türkiyənin başqa ölkədəki strateji maraqlarının kəsiyidir. Məntiqlə, Qərbin Gürcüstanı qorumaq səylərinə Azərbaycan-Türkiyə strateji müttəfiqliyi əhəmiyyətli dəstək verir. Azərbaycan-Türkiyə-Gürcüstan xüsusi təyinatlılarının birgə təlimi də bunu sübut edir. Azərbaycanla Türkiyə Qərbdəki tərəfdaşlarının dəstəyi və tövsiyələri ilə Gürcüstanın təhlükəsizlik zolağında qalmasının ardıcıllığı üçün birgə plan hazırlaya bilərlər. Rusiya isə hələlik Gürcüstandakı münaqişə ocaqlarını qızışdırmaqdan ötrü əlinə açar verildiyini düşünmür, çünki Tbilisi Moskvanı qane edəcək səviyyədə bir duruşa keçib”.

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

**20 Yanvar - xalqımızın şərəf tarixinin otuz üçüncü ildönümünə hazırlıq işlərinə start verilib. Təbii ki, hazırlıq işləri bu günlərdə xalqımızın axın edəcəyi Şəhidlər xiyabanında daha intensiv şəkildə aparılır. Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən verilən məlumatda qeyd olunur ki, Şəhidlər xiyabanı ərazisində ənənəvi qaydada müxtəlif rəngli qərənfillərdən xüsusi kompozisiyalar hazırlanır. Bu işlərə təcrübəli mütəxəssislər, landşaft-dizaynerlər cəlb olunub.**

Bakı Şəhər İcra Hakimiyyətinin qurumları Şəhidlər xiyabanında geniş təmizlik və abadlıq işləri görür, ağacların budaqlarını, bəzi kolları budayıb, qazon örtüyünü yeniləyib, yeni güllər və kollar əkib, işıq dirəkləri rənglənir, səkilər və bütün ərazi yuyulur, xiyabandakı hər iki məşəldə profilaktika aparır. Hazırlıq işlərinin yanvarın 19-dək başa çatdırılması planlaşdırılır. Bunlar ənənəvi işlərdir. Lakin 20 Yanvar faciəsinin daşıdığı mahiyyətin gənc nəslə dolğun çatdırılması, heç şübhəsiz, bütün zamanlar üçün aktual olaraq qalacaq. Bu vəzifə isə evdə valideynlərin, təlim-təhsil müəssisələrində isə müəllimlərin, tərbiyəçilərin üzərinə düşür. 20 Yanvar - qan yaddaşımızla bağlı təqdirəlayiq hal həmin gün ərəfəsində xalqın Şəhidlər xiyabanına kütləvi ziyarəti və bu ziyarətçilər arasında uşaqdan tutmuş, məktəbliyə, tələbə-gənclərə qədər bütün sosial təbəqələrin nümayəndələrinin olmasıdır. Müsbət haldır ki, 20 Yanvar faciəsinin ildönümü yaxınlaşdıqca məktəblilər, tələbələr Şəhidlər xiyabanına aparılır, şəhid məzarları ziyarət edilir. Belə ziyarətlər sözsüz ki, yeniyetmə və gənclərin qan yaddaşının möhkəmlənməsinə, onlarda vətənpərvərlik hisslərinin gücləndirilməsinə xidmət edir. Son illərdə təhsil müəssisələrində 20 Yanvar tarixi ilə bağlı xüsusi dərslərin keçirilməsi də ənənəvi hal alıb. Ötən illərdə olduğu kimi bu il də Elm və Təhsil Nazirliyi tərəfindən xüsusi əmr imzalanıb. Elm və təhsil naziri Emin Əmrullayevin "20 Yanvar faciəsinin otuz üçüncü ildönümü ilə bağlı Elm və Təhsil Nazirliyinin Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında imzaladığı əmrə əsasən, yanvarın 19-da ali, orta ixtisas, peşə və ümumi təhsil müəssisələrində 20 Yanvar faciəsinin 33-cü ildönümünə həsr olunan xüsusi dərslər keçiriləcək. Eyni zamanda məktəblərdə faciəyə həsr olunan kitab, foto və rəsm sərgilərinin, ədəbi-bədii kompozisiyaların təşkil edilməsi də planlaşdırılıb. Həmçinin "20 Yanvar faciəsinin otuz üçüncü ildönümü ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsi də əmr imzalayıb. Bu barədə BŞTİ-nin məlumatında bildirilib. Əmrə əsasən, təhsil müəssisələrində 20 Yanvar faciəsinin otuz üçüncü ildönümünə həsr olunan xüsusi dərslərlə yanaşı təhsil müəssisələrində 20 Yanvar faciəsinin otuz üçüncü ildönümü ilə bağlı konfransların, seminarların, mühazirələrin və dəyirmi masaların təşkili nəzərdə tutulur. BBTİ təhsil müəssisələrində 20 Yanvar faciəsinin otuz üçüncü ildönümünə həsr olunmuş kitab, foto və rəsm sərgiləri, ədəbi-bədii kompozisiyaların nümayişini vacib sayır. Dərslərdə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək. Dərsləri tədris edən müəllimlər 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda törədilmiş vəhşiliklərdən, insanlığa qarşı yönəlmiş hadisələrin acı nəticələrindən söhbət açacaqlar. Eləcə də 20 Yanvar hadisələrinin tarixindən, Vətənimizin əbədiyyətə qovuşmuş şəhid övladlarının şücaətindən bəhs edəcəklər. Qeyd olunur ki, bu cür tədbirlərin keçirilməsi şagirdlərdə Vətənə məhəbbət hissinin daha da möhkəmləndirilməsi, onların Vətənə layiqli övlad kimi yetişdirilməsi və əsl vətəndaş mövqeyinin məktəblilərə aşılanması məqsədlərinə xidmət edir.




# 20 yanvar Azərbaycan xalqının mətinliyinin sübutudur

## Bu tarix gənclərə ümumxalq iradəsinin və mübarizliyinin təntənəsi kimi aşılanmalıdır

**20 Yanvar tarixinin xalqımızın azadlıq, müstəqillik uğrunda qəhrəmanlıq salnaməsi olduğunu deyən Ağ Partiya sədrinin birinci müavini Əhəd Məmmədli "Şərq"ə açıqlamasında qeyd etdi ki, şərəfli tarixin məhz bu formada gənclərin yaddaşında möhkəmlənməsi istiqamətində iş aparılmalıdır:**

- Bəli, cəmiyyət buna şahiddir ki, 20 Yanvar hadisələrinin ildönümü ərəfəsində məktəblərin pedaqoji kollektivləri və şagirdlər Şəhidlər xiyabanını daha intensiv ziyarət edirlər. Bu artıq ənənəvi hal alıb. Bizim mövqeyimiz budur ki, 20 Yanvar tarixi yeniyetmə və gənclərə matəm, hüzn kimi günü kimi deyil, xalqımızın mübarizlik, qəhrəmanlıq günü kimi qeyd edilməlidir. Çünki məhz 1990-cı ilin 20 yanvar günü Azərbaycan millətlər həbsxanası adlandırılan SSRİ adlı məkandan de-fakto ayrıldı və onun qaniçən kommunist rejimindən xilasının başlanğıcı oldu. Məhz yanvarın 20-dən sonra Kommunist Partiyası üzvlüyünü kütləvi tərketmələr başladı, partiya biletləri yandırıldı. Bolşeviklərin işğalına son qoyulmağa başlandı. Azərbaycan dövlət müstəqilliyini rəsmi olaraq 1991-ci il oktyabrın 18-də bərpa etsə də, müstəqillik faktiki olaraq 1990-cı ilin 20 yanvarından başlanmışdı. Hesab edirəm ki, biz məhz bu şərəfli tarixi gənclərimizə anlatmalı, 20 yanvar tarixinin xalqımızın taleyində, dövlətçilik tariximizdə necə önəmli yer tutduğunu bildirməliyik. Təhsil müəssisələrində keçiləcək dərslər də bu istiqamətdə olmalıdır. Məlum məsələdir ki, 1990-cı ilin 20 yanvarına gətirib çıxaran səbəblər var. Və bunun da əsası 1987-ci ildən qoyulmağa başladı. Azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından növbəti kütləvi deportasiyası, erməni separatçılarının Qarabağda növbəti dəfə baş qaldırması, Qarabağın Ermənistana birləşdirilməsinə cəhdlər, xalqımızın etirazları, nümayişlər... Artan xətt üzrə davam edən gərginliyin qarşısını almaq əvəzinə, Sovet rəhbərliyi Azərbaycan xalqına qarşı dəhşətli cinayət işlətdi, zirehli texnikanı xalqın üzərinə yeritdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilib, dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirilib. Xalqın etirazlarının qarşısını almağa çalışan sovet rəhbərliyi xüsusi təyinatlı dəstələri və daxili qoşunların iri kontingentini hərəkətə gətirərək Bakını zəbt edib, xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklər törətdilər. Ümumilikdə Bakıda və ətraf rayonlarında 131 nəfər öldürülüb, 744 nəfər yaralanıb. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olub. Qoşunların qanunsuz yeridilməsi həm də dinc əhali arasında kütləvi həbslərlə müşayiət olunub, yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət və şəxsi əmlak məhv edilib. Bunlar tarixi faktlardır, hər bir Azərbaycan gənci bunları bilməli və əsla unutmamalıdır. 1990-cı ilin 20 Yanvarı gənclərə ümumxalq hüzn günü kimi deyil, ümumxalq iradəsinin, mübarizliyinin təntənəsi kimi aşılanmalıdır. Qeyd edilməlidir ki, 20 yanvar tarixi Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyinin sübutudur. Sovet ordusunun amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı yanvarın 22-də paytaxtın "Azadlıq" meydanında 20 Yanvar şəhidlərinin dəfni ilə əlaqədar matəm yürüşü keçirib. Şəhidlər xiyabanındakı dəfn mərasimində 2 milyona yaxın insan iştirak edib. Xalqın tələbi ilə Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası çağırılıb və Bakı şəhərində fövqəladə vəziyyətin ləğv edilməsi haqqında qərar qəbul edilib. Bu tarixi hadisə Azərbaycan milli kimliyinin formalaşmasına həlledici təsir göstərib, dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi olub. Nəticə etibarilə Azərbaycan müstəqil, suveren dövlət olaraq dünyanın siyasi xəritəsində layiqli yerini alıb. 20 Yanvar istiqlaliyyətə aparan yolumuzun başlanğıcıdır və Şəhidlər Xiyabanını ziyarət edən hər kəs bu hisslərə hakim olaraq addımlamalı, şəhidlərimizin xatirəsini ehtiramla yad etməlidir. Yeniyetmə və gənclərimizin vətənpərvər ruhda yetişməsi üçün dövlətçilik tariximizdə özünə şərəfli yer tutan 20 Yanvar ən bariz nümunədir.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Molla rejiminin daxilində casus şəbəkəsi var



## Əlireza Əkbərinin edam edilməsi hakimiyyətdaxili intriqanın nəticəsidir

**İranda rejimə qarşı etiraz aksiyaları 4 aydır davam edir. Bu müddət ərzində Tehran rejimi daxilində ciddi silkələnmələr oldu və teokratik rejimdən bəzi çatlaq səslər çıxdı. 4 aylıq müddətdə Tehran rejimi istər köhnə məmurları, istərsə də indiki məmurları mütəmadi şəkildə günahlandırmaqdadır. Hətta iş o yerə çatıb ki, fars-molla rejimi uzun illər ona xidmət etmiş şəxsləri belə ölüm hökmünə məhkum etməkdən çəkinmir.**



Rejimi iki əlli qorumağa çalışan məhkəmə 1997-2005-ci illərdə müdafiə nazirinin müavini işləmiş Əlireza Əkbəri haqqında ölüm hökmü verib. İrana məxsus İSNA agentliyi məlumat paylaşıb ki, Əlireza Əkbəri Böyük Britaniyanın xeyrinə casusluqda ittiham olunaraq ölüm hökmünə məhkum edilib. İranın Kəşfiyyat Nazirliyi iddia edib ki, edam edilən Əlireza Əkbəri İngiltərənin Mİ6 kəşfiyyat xidməti ilə sıx əməkdaşlıq edib və İranla bağlı mühüm məlumatları xaricə köçürmək üçün toplayan ən mühüm agentlərindən biri olub.

**Politoloq Samir Hümbətov "Şərq"ə bildirib ki, məsələyə İran Kəşfiyyat Nazirliyinin iddiası və məntiqi ilə yanaşsaq, onda belə anlamaq olar ki, Əlireza Əkbəri nazır müavini olduğu 1997-2005-ci illərdə mühüm postu tutduğu zaman, dövlət əhəmiyyətli məlumatları İngiltərənin Mİ6 kəşfiyyatına ötürüb:** "Nəzərə alsaq ki, həmin dövrdə Əli Şamxani İran müdafiə naziri, Əlireza Əkbəri isə onun müavini olub, o zaman burada iki versiya ortaya çıxmış olur. Əli Şamxani rəhbərlik etdiyi qurumda ikinci şəxsin casus olmasından xəbərsiz olub ki, bu da ciddi nöqsandır. Əlireza Əkbərinin aqibəti onu da gözləməli idi. Əli Şəmxani Əlireza Əkbərinin casus olduğunu bilib və buna göz yumub. Bu da yenə onu həmin cinayətlərə ortaq etmiş olur. Yəni hər iki halda Əli Şamxani də Əlireza Əkbəri qədər bu işlərdə məsuliyyət daşıdığını demək mümkündür. Amma gördüyümüz mənzərə ondan ibarətdir ki, Əli Şamxani admiral rütbəsində İranın ali rəhbəri ayətullah Seyid Əli Xomneyinin xüsusi nümayəndəsi və İran ali təhlükəsizlik şurasının katibidir. Buradan belə qənaətə gəlmək olar ki, Əlireza Əkbərinin edam edilməsi hakimiyyətdaxili intriqanın nəticəsidir. Əlireza Əkbərin İngiltərə vətəndaşı olması ilə bağlı iddiaların bir neçə qaynağı var. Bəzi məlumatlara əsasən, Əlireza Əkbəri edam edilmədən öncə Tehrana səfəri zamanı casusluqda ittiham olunaraq həbs edilib. Amma sonra girov qarşılığında sərbəst buraxılıb. Nəhayət, İran kəşfiyyatı 2023-cü il yanvarın 1-də onu yenidən həbs edib və ona qarşı casusluq ittihamını irəli sürüb və edam edilib".

*S.Hümbətov vurğulayıb ki, 1979-cu il İslam İnqilabını dəstəkləyən və nəticəyə çatdıran İngiltərənin Mİ6 kəşfiyyatı olub:* "Qərb dövlətləri ilə ən gərgin vəziyyətdə belə İngiltərə ilə əlaqələri kəsməyən Tehran rejmi indi casus axtarışına çıxıb. Bəs bunun əsl səbəbi nədir? Əgər rejim daxilində müdafiə nazirinin müavini səviyyəsində casus varsa, demək, digər orqanların da daxilində casus şəbəkəsinin olması ehtimalı şübhəsizdir".

**İsmayıl Qocayev**

**"Vergi Məcəlləsinə" edilən dəyişikliklərə əsasən, İpoteka və Kredit Zəmanət Fondu tərəfindən yaşayış sahələrinin kirayəçilərə təqdim edilməsi əməliyyatı ƏDV-dən azad edilir. Söhbət kirayə üzrə əməliyyatın 18.0 faizlik vergidən azad edilməsindən gedir. Artıq bu qaydalar yanvar ayından qüvvəyə minib.**



# Yeni qaydanın daşınmaz əmlak bazarına təsiri yoxdur

## Mənzillərin kirayə verilməsində və satışında dəyişiklik olmayacaq

*Millət vəkili, iqtisadçı-ekspert Vüqar Bayramovun sözlərinə görə, yeni güzəştlər fond tərəfindən təqdim edilən kirayə evlərin xərcinin azalmasına gətirib çıxaracaq. Bu isə daha aşağı qiymətə həmin mənzillərin kirayə təklif olunmasına səbəb ola bilər:* "Kirayə mənzillər İpoteka və Kredit Zəmanət Fondu tərəfindən 3 ildən 25 ilədək 2013-cü il 1 yanvar tarixindən sonra inşa edilən binalarda mənzilləri satın almaq məqsədilə təqdim edilir. Yəni vətəndaş kirayə pulunu ödədikdən sonra mənzilə sahib olur. Bu zaman vətəndaşın son ödəniş tarixində yaşı 70-dən çox olmamalıdır və mənzillərin dəyəri manatla ödənilir.

İndiyədək satmaq öhdəliyi ilə kirayə mexanizmi çərçivəsində 2 970 vətəndaşla kirayə müqaviləsi bağlanıb. Vergi güzəştləri fonunda mənzillərin kirayə qiymətlərinin azalması baş verərsə, daha çox vətəndaşımızın bu imkandan yararlanmasına səbəb ola bilər. Belə ki, indiyədək bu mənzillərə sahib olmada aylıq ödəniş məbləğinin yüksək olması əsas maneə kimi dəyərləndirilirdi. Mənzillər Bakı ilə yanaşı Sumqayıtda da təklif olunur. Bu ay Sumqayıtda 208 mənzil satın almaq məqsədilə kirayəyə təklif olunacaq. Mənzil seçimi yanvarın 18-dən başlayacaq. Vergi güzəştlərinin mənzillərin xərcinə təsir edəcəyi istisna edilmir".

**Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev isə sözügedən kateqoriyaya aid olmayan mənzillərin kirayə verilməsində və satışında dəyişikliyin olmayacağını deyib:** "Bu qaydanın daşınmaz əmlak bazarına təsiri olmayacaq. Ona görə ki, əmlak bazarında təkrar satışlarda vergi yoxdur. Burada əraziyə, yəni hər kvadrata görə vergi təyin olunur. Bu layihə isə sosial layihə olduğu üçün vergidən azaddır. 18 faiz məsələsi isə tikinti şirkətlərinə aid olunur. Kirayə qiymətlərində dəyişikliyin olacağını gözləmirəm".

**Şəymən**

# Sığortaçılar avtomobilin icbari sığortasından imtina edə bilməz

## Mövcud problemlərin həlli məqsədilə mütəmadi olaraq Mərkəzi Bank tərəfindən ciddi şəkildə monitorinqlər həyata keçirilir



**Azərbaycan Respublikası Mərkəzi Bankının (AMB) əsas fəaliyyət istiqamətlərindən biri də sığorta sektorunda tənzimləmə və nəzarət funksiyalarının həyata keçirilməsidir. Bu istiqamətdə son dövrlərdə, xüsusilə avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası (avtoicbari) sahəsində həyata keçirilən tədbirlər və tətbiq edilən yeniliklər haqqında məlumatlar mütəmadi olaraq ictimaiyyətin diqqətinə təqdim edilir.**

AMB-dan bildirilib ki, sığorta sahəsində görülən islahat tədbirləri sığorta xidmətlərinin ölkəmizdə inkişaf edirilməsinə, sığortalıların hüquqlarının qorunmasına və sığorta xidmətlərinə əlçatanlığın təmin olunmasına xidmət edir. Qəbul edilən qərarlar üzrə son yeniliklərdən biri də avtoicbari sığorta üzrə sığorta müqaviləsi bağlayan sığortaçıların rəsmi internet səhifəsinə dair yeni tələbin müəyyən edilməsidir. Mərkəzi Bankın İdarə Heyətinin 2022-ci il 28 dekabr tarixli qərarı ilə "İcbari sığorta növlərinin aparılmasına icazə verilməsi üçün Əlavə Tələblər"də dəyişikliklər təsdiqlənib. Həmin dəyişikliklərə əsasən, avtoicbari növünün aparılmasına icazə almaq istəyən hər bir sığortaçı sığortalılarla müvafiq icbari sığorta müqaviləsinin öz rəsmi internet səhifəsi vasitəsilə qanunvericiliyə uyğun olaraq bağlanması imkanına malik olmalıdır. Müvafiq sığorta növünün aparılmasına icazəsi olan sığortaçılar öz rəsmi internet səhifəsinin texniki imkanlarını tələblərin qüvvəyə mindiyi tarixdən etibarən 10 gün müddətində həmin tələbə uyğunlaşdırmalıdırlar.

İnformasiya və kommunikasiya texnologiyalarının yüksək sürətlə inkişaf etdiyi, bütün dünyada olduğu kimi, ölkəmizdə də internetə çıxışın genişləndiyi və rəqəmsallaşma texnologiyalarının tətbiq edildiyi müasir dövrümüzdə zamanın tələbi nəzərə alınaraq qeyd edilən dəyişikliyin tələblərə əlavə edilməsi zəruri hesab olunub. Bu dəyişiklik avtoicbari sığorta növü üzrə sığorta şəhadətnamələrinin şirkətlərin rəsmi veb-səhifələri üzərindən müştərilər tərəfindən onlayn qaydada rahat şəkildə əldə olunmasını təmin edəcək.

Eyni zamanda, qeyd etmək lazımdır ki, "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa, eləcə də onun tətbiqi ilə bağlı müvafiq Fərmana son dövrlərdə edilən dəyişikliklər də bu məqsədə xidmət edir. Bütün bu dəyişikliklər sığorta sahəsində informasiya və kommunikasiya texnologiyalarının tətbiqini nəzərdə tutmaqla icbari sığorta növlərinin tam olaraq elektronlaşmasına, nəticə etibarilə bu sahədə həyata keçirilən bütün xidmətlərin rəqəmsallaşmasına şərait yaradacaq. Sığorta xidmətlərinə əlçatanlığın maksimal şəkildə təmin olunması və sığorta fəaliyyətinin rəqəmsallaşdırması istiqamətində islahatlar Mərkəzi Bank tərəfindən mütəmadi həyata keçiriləcək.

Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta müqavilələrinin bağlanması ilə bağlı bir daha qeyd olunmalıdır ki, qanunvericiliyə əsasən bu növ üzrə icbari sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq icazəsi olan sığorta şirkətləri avtomobillərin icbari sığorta edilməsi ilə bağlı onlara edilən müraciətlərə cavab olaraq avtomobilləri sığortalamaqdan imtina etmək hüququna malik deyildir. Belə ki, "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununun 23.3-cü maddəsinə əsasən, sığortaçı müvafiq riskləri sığorta etdirmək üçün müraciət edən və sığorta marağı olan şəxslə icbari sığorta müqaviləsi bağlamaqdan imtina edə bilməz. Qeyd edilən məsələ ilə bağlı sığortaçılar tərəfindən imtina halları baş verdiyi təqdirdə vətəndaşlar 966 qaynar xəttinə zəng vurmaqla və ya yazılı şəkildə müraciət etməklə Mərkəzi Banka öz şikayətlərini bildirə bilərlər. Daxil olan bütün şikayətlər operativ qaydada nəzarətə götürülərək müraciətdə qeyd edilən məsələlər dərhal araşdırılır və qısa müddət ərzində vətəndaşın seçdiyi sığortaçı tərəfindən icbari sığorta şəhadətnaməsinin buraxılması təmin edilir.

Hazırda avtoicbari sığorta bazarında vəziyyətə nəzarət edilməsi və mövcud problemlərin həlli məqsədilə mütəmadi olaraq Mərkəzi Bank tərəfindən ciddi şəkildə monitorinqlər həyata keçirilir, hərtərəfli təhlillər və qiymətləndirmələr aparılır. Qiymətləndirmələrin nəticələri əsasında Mərkəzi Bank tərəfindən zəruri addımların atılması davam etdiriləcək.

## 8 qida maddəsi qəbul edin

### Qışda dərinin qurumasını və çatlamasını əngəlləyir

(Əvvəli səh: 8-də)



**İspanaq**

İspanağın tərkibindəki C vitamini ilə yanaşı, K vitamini də kollagen istehsalını artırır. Əhəmiyyətli bir qida maddəsi olan kalium da bu tərəvəzdə mövcuddur.

**Qırmızı bibər**

Digər məhsullar kimi tərkibində A və C vitaminləri olan qırmızı bibərdə də K və E vitaminləri var. K vitamini kollagenin səviyyəsini artıra bilər, E vitamini isə zədələnmə və quruluğun səbəb olduğu iltihabı azalda bilər.

**Qızılbalıq**

Somonda əhəmiyyətli miqdarda Omeqa 3 yağ turşuları var. Bu yağ turşuları dəri sağlamlığında mühüm rol oynayır. Somonda həmçinin iltihab və quruluğa yaxşı təsir edən D vitamini də var.

**Günəbaxan tumu**

Dörddə bir fincan günəbaxan toxumu böyüklər üçün tövsiyə olunan gündəlik E vitamini ehtiyacının demək olar ki, yarısını ödəyir. Bu vitamin iltihab əleyhinə xüsusiyyətlərə malikdir və dəri baryerinin qorunmasını təmin edir. Günəbaxan toxumlarında dərini zərərli ultrabənövşəyi şüalardan qoruyan mis də var.

**Badam**

E vitamininin başqa bir mənbəyi olan badam dəri baryerini gücləndirir. Badam həm də zülal və lif mənbəyidir.

**Dana qaraciyəri**

Dana qaraciyəri şirin kartof kimi yüksək miqdarda A vitamini ehtiva edir. Bu vitamin ultrabənövşəyi şüaların vurduğu zərərin qarşısını almaqla yanaşı, dərinin nəm saxlanmasına da kömək edir. Beləliklə, məsələn, sədəf xəstəliyindən yaranan qaşınma dərisi üçün də yaxşıdır.



## 3-ü 10 manata kənd çolpası?

### Keyfiyyətsiz məhsulu kənd çolpası adı ilə camaata sırıyırlar

**Aşağı qiymətə satılan kəsilmiş toyuqlar yumurtadan kəsilənlərdir**

**Son zamanlar binaların, metrostansiyaların qabağında 3-ü 10 manata kənd çolpası adı ilə toyuqlar satılır. Ucuzluğuna həvəslənib, alanlar da az deyil.**

Maraqlıdır, ətin bu qədər bahalaşdığı bir zamanda 3-ü 10 manata toyuq əti almaq olarmı?

Azərbaycan Quş Əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyasının (APEPEA) İdarə Heyətinin sədri Mürvət Həsənli deyib ki, əslində bu cür toyuqlar ölkəmizə daha çox Belarusdan gətirilir. Onun sözlərinə görə, bu toyuqlar dondurulmuş halda olurlar və qablaşdırmanın üzərində 2-ci sort olduğu qeyd edilir. Sadəcə, bəzi işbazlar qablaşdırmanı cırır, keyfiyyətsiz məhsulu kənd çolpası adı ilə satmağa çalışırlar.

**Qida məsələləri üzrə ekspert Ağa Salamov isə "Şərq"ə açıqlamasında deyib ki, toyuqların ucuz olmasına əsas səbəb yaşı keçmiş olmalarıdır:** "Bu cür aşağı qiymətə satılan kəsilmiş toyuqlar yumurtadan kəsilənlərdir. Bu toyuqlar, yumurtalıq olaraq yetişdirilirlər. Yarka dövrünü keçən heyvan ətinin satışı və yeyilməsi isə doğru deyil. Yarka yumurtlamadan öncəki olan və xoruz olmamış dövrdür. Toyuq dediyimiz isə yumurtlayanlardır. Yumurtadan kəsilən toyuqları isə kəsib bu cür ucuz qiymətə satırlar. Belə həddi-buluğa çatan quş ətləri isə yeyilmək üçün əlverişli deyil".

Şəymən

# 40 metr məsafədən aydın oxunmalıdır

## Sürücülər avtomobillərinin qeydiyyat nişanının təmiz olub-olmamasına tez-tez nəzarət etməlidirlər



**Baş Dövlət Yol Polisi İdarəsi sürücülərə müraciət edib. İdarədən "Şərq"ə verilən məluamta görə, qanunvericiliyin tələbinə əsasən, hərəkətdə olan nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanının aydın görünməsi üçün onun təmiz saxlanılması təmin edilməlidir.**

Müraciətdə qeyd olunub ki, nəqliyyat vasitələrinin sürücüləri tərəfindən bu vəzifənin yerinə yetirilməməsi avtomobilin istismarı qaydalarının pozulması hesab edilir və inzibati məsuliyyət yaradır:

"Ötən günlərdə ölkə ərazisində müşahidə olunan qarlı, çiskinli hava ilə əlaqədar yollarda çirkli su və ya palçığın yaranma ehtimalı artığından, sürücülər avtomobillərinin dövlət qeydiyyat nişanlarının təmizliyinə daha çox diqqət ayırmalıdırlar. Lakin bir sıra hallarda sürücülərin mövcud hava şəraitindən suiistifadə edərək nəqliyyat vasitələrinin dövlət qeydiyyat nişanlarının təmizliyinə əhəmiyyət vermədikləri, hətta bilərəkdən nişanların üstünü süni şəkildə çirkləndirmələri yolverilməzdir".

**Yol təhlükəsizliyi məsələləri üzrə ekspert, hüquqşünas Ərşad Hüseynov da hesab edir ki, sürücülər avtomobillərinin qeydiyyat nişanının təmiz olub-olmamasına tez-tez nəzarət etməlidirlər. Onun sözlərinə görə, qeydiyyat nişanının görünüşünü çətinləşdirən örtüklərdən və qurğulardan istifadə edirlərsə, o zaman belə sürücülər cərimələnir:** "Nömrə nişanı 40 metr məsafədən aydın oxunmalıdır. Əgər oxunmursa, onda çirkli hesab olunur. Əgər sürücü özü qəsdən nömrənin üstünü müxtəlif cihaz və maddələrlə örtərsə, bu, sürücüyə 500-800 manat arası başa gələcək. Yox əgər yağışlı havadan çirklənərsə, onda sürücüləri 40 manat cərimə gözləyir".

Şəymən

**Elan**

Səfərov Valid Müzəffər oğluna məxsus sürücülük vəsiqəsi və ona məxsus olan 90 BC 260 dövlət nömrə nişanlı avtomobilin dövlət qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Hüseynova Lətafət Sarı qızına məxsus Xırdalan şəhəri, H.Əliyev prospekti 167 ünvanında yerləşən AAAF-park yaşayış massivi, küçə 29, bina 2, marsart tipli 29,2 kv. 1 otaqlı mənzilə aid müqavilə itdiyi üçün etibarsız sayılır.

## Avropada dərman tapılmır




**Fransada dərman qıtlığı yaşanır.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, ölkədə amoksisilin, ağrıkəsici və qızdırmasalıcı kimi dərmanları tapmaq çətinləşib. Dərmanların təminatında problem yaşayan əczaçılar keçən ilin sonundan etibarən təslimat gözləyirlər. Fransa hökuməti isə yaşanan dərman qıtlığını Çində coronavirusun şiddətlənməsinə görə parasetamol və amoksisilin maddəli dərmanların çox istifadə olunması ilə əlaqələndirir.

Qeyd edək ki, Fransa hökuməti problemin həlli üçün yanvar ayının sonuna qədər parasetamol tərkibli dərmanların onlayn satışına qadağa qoyub. Dekabrda əldə edilən məlumata əsasən, 70-dən artıq əczaçı dərman qıtlığı olduğunu bəyan edib.

*Xatırladaq ki, Almaniya, ABŞ, Kanada, Avstraliya kimi dövlətlərdə də amoksisilin tərkibli dərmanlarda tədarük problemi müşahidə olunur.*

## "Bizə zülm edirlər, bu nə bəladır"

### Elza sosial şəbəkədə hər getdiyi yeri və yediyini paylaşanları tənqid edib



**"İndi şou-biznesdən söhbət gedə bilməz. Biznesdir ancaq. Gedirsən bir yerə, arzuolunmaz hadisələrlə üzləşirsən, arzuolunmaz musiqi dinləyirsən. Məcbur bunları dinləyirsən və özün öz gözündən düşürsən. Deyirsən, niyə bunlara qulaq asmalıyam, məcburam. Həqiqətən özüm öz gözümdən gündə neçə dəfə düşürəm".**

Bu sözləri Əməkdar artist Elza Seyidcahan "Space maqazin"ə açıqlamasında deyib. Müğənni sosial şəbəkədə hər getdiyi yeri və yediyini paylaşanları tənqid edib:

"Baxırsan bir müğənninin yanında jurnalist, onunla hər yerə gedir, nə edirsə, çəkir. İndi ev, kürk, palto aldım, deyib gündəmə gəlirlər. Hara gedirlər, yemək yeyirlər sosial şəbəkədə paylaşırlar. Bu da çox baxış yığır. Kanallarda onları buna görə efirə çağırır. Onlar bəzi aparıcılara bahalı hədiyyə, pul, qızıl verirlər".

Seyidcahan bir verilişə dəvət alanda qarşılığında qonorar yox, məişət əşyası istədiyini söyləyib:

"Bir aparıcımız dəvət etdi, dedim gələcəm, cavab verdi ki, ürəyin nə istəyir verəcəyəm. Evdə tozsoranım işləmirdi, verdilər. Sonra da soyuducum xarab olmuşdu, efirə getdim, onu da aldım".

Müğənni yeni gündəmə gələn ifaçıları tənqid edib və ünvanlarına qarşış yağdırıb:

"10 il bundan əvvəlki musiqiçiləri dinləyərdim. Amma son 10 ildir sənətə gələnləri apar tulla. Zülm edirlər bizə, nə bəladır budur. Allaha yalvarıram, bizi son günlər tanınan müğənnilərdən xilas etsin. Başqa sahədə biznes qursunlar, getsinlər. Gətirib bu musiqini bizim incəsənətə caladılar, məyus oluram".

## Cəfər Cabbarlının ev muzeyinin dam örtüyü bərpa edilib



**Cəfər Cabbarlının ev muzeyinin dam örtüyü bərpa olunub.**

Bu barədə Mədəniyyət Nazirliyindən məlumat verilib.

"Yanvarın 13-də günün ikinci yarısında güclü külək Sumqayıt Regional Mədəniyyət İdarəsinin (RMİ) əhatə etdiyi Xızı rayonunda Cəfər Cabbarlının ev muzeyinin dam örtüyünün bir hissəsini uçurmuş, həmçinin muzeyin binasını elektrik enerjisi ilə təmin edən xətlər sıradan çıxarmışdı. Mədəniyyət Nazirliyi tərəfindən dərhal verilən tapşırığa əsasən, yanvarın 15-də muzeyin binasının dam örtüyündə aparılan bərpa işləri başa çatdırılıb", - deyə məlumatda qeyd olunub.

## Mirkamillə bağlı sual Mələkxanım Eyubovanı əsəbiləşdirdi



**Xalq artisti Mələkxanım Eyubova uzun müddətdir sənətdən uzaqlaşan bacısı oğlu Mirkamil Kamilovla bağlı suala əsəbiləşib.**

Axşam.az xəbər verir ki, xanəndə "Sözbaz" proqramına müsahibə verib. Çəkiliş zamanı ona Mirkamillə bağlı sual ünvanlanıb. Eyubova isə müsahibəni yarımçıq saxlayaraq, onun haqqında danışmaq istəməyib.

*Qeyd edək ki, Mirkamil uzun müddət əvvəl sənətdən gedib və telefonlara cavab vermir. Sənətçi 2018-2019-cu illərdə sosial şəbəkədəki qəribə paylaşımları ilə gündəmə gəlmişdi. Mirkamil hətta açıqlamalarından birində narkotika qurşandığını demişdi. Mirkamil eyni zamanda müğənni-bəstəkar Ramal İsrafilovun bibisi oğludur.*

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 161



## Rekord istilər gəlir

Qış aylarında havaların kəskin istiləşməsi anormal haldır

**Qarlı havalardan sonra havaların kəskin istiləşəcəyi gözlənilir.**

Buna qlobal iqlim dəyişikliyinin səbəb olduğunu bildirən mütəxəssislər iqlimdəki bu kəskin dəyişikliyin insan orqanizminə mənfi təsirlərini də qeyd edirlər. Qış aylarında havaların kəskin istiləşməsi anormal haldır və bu, insanlara mənfi təsir edir. ”Şərq” ”NTV.com.tr”yə istinadən xəbər verir ki, Türkiyədə quraqlıq təhlükəsi yaşanır. Bir çox bölgədə yağıntılar yetərsizdir, havalarsa soyumur. Növbəti həftədə isə havanın temperaturunun daha da artacağı, bəzi bölgələrdə 20 dərəcəyədək yüksələcəyi gözlənilir. Ölkə hazırda qış mövsümünə rəğmən tərs bir iqlim şəraitindədir. Qarşıdakı həftə ərzində Mərmərə bölgəsində temperatur yüksələcək. Bu barədə NTV Meteoroloji şöbəsindən xəbər verilib. Qara dəniz bölgəsində son illərin ən isti, quraq mövsümü gözlənilir. Qarın yalnız yanvar ayının sonlarında yağacağı ehtimalı var. Qlobal iqlim dəyişikliyi fonunda 7 bölgədə sel, daşqınlar gözlənilir. Vətəndaşlara bununla bağlı xəbərdarlıq edilib.

**Məlahət**

## Edam hökmü çıxarılanların sayı hər keçən gün artır

Özünü müdafiə üçün onlara cəmi 15 dəqiqə vaxt verildiyi bildirilir



**İranda Məhsa Əmininin ölümü sonrası başlanan etiraz aksiyalarında iştirak etdikləri üçün barələrində edam hökmü çıxarılanların sayı hər keçən gün artır.**

”NTV.com.tr” bildirir ki, son məlumatlara görə, barəsində edam hökmü çıxarılmış şəxslərə özünü müdafiə üçün cəmi 15 dəqiqə vaxt verildiyi bildirilir. İndiyədək edam qərarı verilmiş 22 nəfərdən 4-ü barədə hökm icra edilib. Yanvarın 7-də edam edilmiş 22 yaşlı Muhəmməd Mehdi Kəramiyə özünü müdafiə üçün məhz 15 dəqiqə danışmaq hüququ verilib. Bunun etirazçıları çətin duruma salmaq, haqlı olduqlarını sübuta yetirmək üçün müddətin tanınmaması məqsədilə edildiyi aşkardır. Bu şəxslərin məhkəməsində nə media nümayəndələri, nə də ailə üzvlərinin iştirakına icazə verilmir. Mərkəzi Norveçdə yerləşən İran İnsan Haqları Təşkilatının məlumatına görə, etiraz aksiyalarında iştirak etdikləri üçün həbs edilənlərdən 109 nəfərin şəxsi işi edam hökmü istənilməklə məhkəməyə göndərilib. Etiraz aksiyalarında həyatını itirənlərin sayı isə 481 nəfərə çatıb. Vəfat edənlərin 35-i qadın, 64 nəfərinsə 18 yaşdan kiçik olduğu bildirilir.

**Məlahət**



# Yeganə ölkədir

## Əksər yerlərdə siqaret çəkmək qadağan edilib

**Tütün məmulatları ilə bağlı dünyanın ən sərt təcrübəsi Meksikada başladı. Yeni qanunla ölkədə bütün ictimai yerlərdə siqaret çəkmək qadağan edilib. Qadağaya çimərliklər və parklar da daxildir.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, Meksika ictimai yerlərdə siqaret çəkməyi qadağan etməklə dünyada tütünə qarşı ən sərt qanunlardan birini qəbul edib.

Hökumət 2008-ci ildə qəbul edilmiş barlar və restoranlar kimi qapalı yerlərdə siqaret çəkməyi qadağan edən qanunu çimərliklər və parklar da daxil olmaqla bütün ictimai yerlərdə genişləndirdi.

2021-ci ildə təsdiq edilən və sabahdan etibarən tətbiq olunacaq yeni tənzimləmə çərçivəsində hətta satış nöqtələrində tütün məmulatlarının təşviqi, reklamı və sponsorluğu qadağan edilib.

Digər Cənubi Amerika ölkələri əvvəllər tütündən istifadəni məhdudlaşdıran qanunlar qəbul etsə də, bu ölkələr arasında ən əhatəli və təsirli tədbir görən ölkə Meksika olub.





Siqaret çəkənlər qanunun icrası ilə bağlı narahatlıqlarını ifadə ediblər və bu tənzimləmənin korrupsiyanın adiləşdiyi ölkədə hüquq-mühafizə orqanları üçün ”yeni rüşvət qapısı” ola biləcəyi iddia edilib.

Buna cavab olaraq, Pan Amerika Səhiyyə Təşkilatı (PAHO) Meksikada yeni tənzimləmənin tətbiqini alqışlayıb.

**Turan**



## Bakıda qadın böyrəyini ərinə verdi

Xəstə orqan köçürülməsi ilə dializə son verib



**Böyrək çatışmazlığı olan xəstə orqan köçürülməsi ilə dializə son verib.**

**”Medicina” xəbər verir ki, transplantoloq Tariyel Nadirov xəstəyə donorun öz həyat yoldaşı olduğunu açıqlayıb. Qadın həyat yoldaşına öz böyrəyinin birini bağışlayıb və onun sağlam yaşaması üçün hər ikisi əməliyyata giriblər. Əməliyyat uğurla nəticələnib.**

**”Vəziyyətləri tam normal olan ailə cütlüyünün donorunu bugün evə yola saldıq. Xəstəni isə yaxın günlərdə evə göndərməyi planlaşdırırıq. Orqan nəqli möcüzədir. Bu əməliyyatda əziyyəti keçən hər kəsə təşəkkürümü bildirirəm”.**

## Bu ölkədə 60 qadın qaçırılıb



**Silahlılar Burkina Fasonun şimalında 60-a yaxın qadını qaçırıblar.**

**Oxu.az xəbər verir ki, bu barədə Aribenda hakimiyyətinə istinadən məlumat yayılıb. Məlumata görə, yanvarın 12 və 13-də yaraqlılar şəhərin yaxınlığında meşəlik ərazidə giləmeyvə yığan qadınlara hücum ediblər. Ordu bölmələri və yerli özünümüdafiə qüvvələri oğurlananların axtarışını davam etdirir. Səlahiyyətlilər hücumların terror qruplaşmalarının yaraqlıları tərəfindən törədildiyini güman edirlər.**

## Şakira Pikenin anasından intiqam aldı



**Kolumbiyalı müğənni Şakira furbolçu Jerar Pikedən ayrıldıqdan sonra intiqam marafonunu davam etdirir.**

**Axşam.az xəbər verir ki, bir neçə gün əvvəl təqdim etdiyi mahnıda keçmiş sevgilisinə söz atan ifaçı bu dəfə onun anasına sataşdı. Müğənninin qonşuları onun İspaniyadakı evinin eyvanında böyük cadugər gəlinciyini görüblər. Məlum olub ki, Şakiranın keçmiş qayınanasının pəncərələri onun eyvanına baxır. Bu isə o deməkdir ki, qadın hər səhər saçları ağarmış, qara papaqlı cadugər fiqurasına baxır. Qonşuları bildirib ki, Şakira pəncərələri açıq qoyaraq, yeni mahnısını yüksək səslə səsləndirir. beləcə, qayınanası mahnını dinləmək məcburiyyətində qalır.**



# 8 qida daha çox sağlamlıqdır

## Qışda dərinin qurumasını və çatlamasını əngəlləyir

**Qışda soyuq hava, külək, istilik və havasız mühitlər dəri sağlamlığına mənfi təsir göstərir. Bu səbəbdən dəridə quruluq yarana bilər. Bu vəziyyətdən əziyyət çəkən insanlar dərilərini bəzi qidalarla, eləcə də kremlərlə nəmləndirə bilərlər. Dərinin quruluğuna yaxşı gələn 8 qida...**



**Şirin kartof**

Şirin kartof A və C vitaminləri ilə zəngindir. Vitamin A dərini günəş işığının zərərindən qoruyur. Həmçinin dərinin həddindən artıq qurumasının qarşısını alır. Digər tərəfdən, unutmayın ki, çox miqdarda A vitamini dərinin qurumasına və dodaqların çatlamasına səbəb ola bilər.

Vitamin C dəridə kollagenin artmasına kömək edir. Bədənin iskelesinin xammalı olan kollagenin əsas vəzifəsi birləşdirici toxumanı gücləndirmək və bədənin bütövlüyünü qorumaqdır. Kollagen də dərini canlı, nəmli və sağlam saxlamağa kömək edir.

**Narıncı**

Qışda sağlamlıq anbarı olan portağal yüksək miqdarda C vitamini ehtiva edir. Günə bir portağal və ya bir stəkan portağal suyu ilə başlamaq dərinizə faydalı ola bilər. Bu meyvənin tərkibində kalium da var. Kalium orqanizmin maye və elektrolit balansının saxlanmasında rol oynayır.

*(Davamı səh:7-də)*

## Daha çox gənclər əziyyət çəkir

Nomofobiya hansısa formada mobil telefondan məhrum olmaq həyəcanıdır



**Nomofobiya və əlamətlərinə dair yeni detallar aşkarlanıb. ”Şərq” ”NTV”-yə istinadən xəbər verir ki, nomofobiya mobil telefonun təmin etdiyi rabitədən kəsilmək qorxusu deməkdir. Yəni hansısa formada mobil telefondan məhrum olmaq həyəcanıdır. Müasir dövrün yeni sindromlarından biri kimi təyin edilib.**

Bu vəziyyət xüsusilə, smartfonların artan istifadəsindən sonra vüsət alıb. Bəzi insanlar telefonsuz qaldığı an psixoloji gərginlik yaşaya bilər. Mütəxəssislərin fikrincə, adıçəkilən sindroma daha çox gənclərdə rast gəlinir.

Telefonun enerjisi bitəndə özünü çox çarəsiz hiss etmək, smartfonu hardasa unutmaq, onun xarab olması, istifadə edə bilməmək qorxusu nomofobiyanın əlamətləridir.

Eyni zamanda telefon olmadıqda başgicəllənmə, ürək döyüntüsü, nəfəs almaqda çətinlik, mədə ağrıları kimi bəzi narahatlıqlar sözügedən qorxuya daxildir.

Nomofobiyanın müalicəsi üçün insan ilk növbədə, bunu bir problem kimi qəbul etməlidir. Mövcud vəziyyətlə bağlı şüurunun inkişafına çalışmalıdır. Telefonlar çox vacibdir, lakin əyani ünsiyyəti heç vaxt əvəz edə bilməz. Bu mövzuda psixoloji yardım almaq lazımdır.

Həmçinin telefon asılılığından əziyyət çəkən şəxslər özlərini hazır hiss etdikdə psixoterapiya prosesinə başlamalıdır. Terapiyanın məqsədi insanların telefonla əlaqəsinin kəsilməsi ilə bağlı qorxu və təşviş yaradan düşüncələrini dəyişdirməkdir.

**Sücayət Mehti**

## Balqabaq minbir dərdə çarədir

Elə xəstəlikləri müalicə edir ki...



**Balqabağın faydaları, hansı dərdlərə çarə olduğu açıqlanıb.**

”Şərq” ”NTV”-yə istinadən xəbər verir ki, balqabaq balqabaqkimilər fəsiləsinə aiddir. Sözügedən lifli meyvənin tərkibində kalium, kalsium, maqnezium, natrium və dəmir var. Balqabaqda A, C və E vitaminləri mövcuddur. Bədəndəki infeksiyalarla mübarizə apararaq, immunitetə qarşı qorumaqda effektivdir. Həmçinin göz və dəri sağlamlığına müsbət təsir göstərir. Xərçəngdən müdafiə edir. İmmun sisteminin yaxşılaşdırılmasında mühüm rol oynayır. Tərkibi C vitamini olduğu üçün yaraları tez sağaldır. Bundan əlavə, balqabaqda katarakt riskini azaltmağa kömək edən lutein və zeaksantin də var.

Qeyd edək ki, həzmə də kömək edir. Arıqlamaq istəyənlər üçün çox ən yaxşı qidadır. Xüsusilə, qəbizliyin qarşısını alır. Həzm sisteminin nizamlı işləməsini təmin edir.

Balqabağın tərkibindəki vitamin və mineralların itirilməsinin qarşısını almaq üçün qısa müddətə sobada və ya buxarda bişirilə bilər. Diabet xəstələri mütəxəssis nəzarəti altında faydalanmalıdır.

Yeməmişdən əvvəl uzun müddət istiyə məruz qalmamalıdır. Balqabaq deserti hazırlayarkən sağlamlığa faydası üçün şəkər yerinə bəhməz və ya bala üstünlük vermək olar.

**Sücayət**